QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 207 (5679) **1 noyabr** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Lider dövlətin nəhəng layihəsi - "Cənub Qaz Dəhlizi"

*İlham Əliyev: "Cənub Qaz Dəhlizi"nin uğurla başa çatması Azərbaycan üçün yeni imkanlar açacaq"*




Səh 2

Əli Həsənov: "Prezident İlham Əliyev şair Mikayıl Müşfiqlə bağlı məsələni şəxsi nəzarətinə götürüb"



4

Bakı "Ekspo 2025" Ümumdünya Sərgisinə ev sahibliyi etmək üçün unikal məkandır



3

Azərbaycan dünyanın ən çox islahat aparan ölkəsi elan olundu



4

Azərbaycanda son illər işsizlik və yoxsulluğun səviyyəsi azalıb



11

"Azərbaycanda sabitliyin əsasını dövlətin din sahəsinə göstərdiyi qayğı təşkil edir"



8

Paşinyan Avropadan 3 milyon avro "dilənə" bildi



5

13

Əvvəl dövləti, sonra da medalı satan Rəsul Quliyev



7

Evimizi bəzəyən təhlükəli "gözəllik"



16

Konte də "Real"dan imtina etdi!



# Lider dövlətin nəhəng layihəsi - "Cənub Qaz Dəhlizi"

## *İlham Əliyev: "Cənub Qaz Dəhlizi"nin uğurla başa çatması Azərbaycan üçün yeni imkanlar açacaq"*

***Dünya miqyasında etibarlı tərəfdaş kimi tanınan Azərbaycanın gerçəkləşdirdiyi enerji və nəqliyyat layihələri regionun iqtisadi-siyasi həyatında mühüm rol oynayır. Bu baxımdan, artıq açılışı olan Avropanın, bütövlükdə, regionun enerji təhlükəsizliyində çox ciddi önəm kəsb edən "Cənub Qaz Dəhlizi" müstəsna əhəmiyyətə malikdir.***




Azərbaycan Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında qeyd edib ki, Azərbaycanın uğurlu inkişafı üçün yerli istehsalın artması ən önəmli amillərdən biridir: "Dövlətin dəstəyi ilə bu istiqamətdə bir çox layihələr icra edilir. O cümlədən, dövlətin birbaşa maliyyə dəstəyi ilə böyük, nəhəng müəssisələr yaradılır. Misal üçün, bu il Polipropilen Zavodunun açılışı, hesab edirəm ki, çox əlamətdar hadisədir. Bu zavodun açılışında İtaliya Prezidenti mənimlə birlikdə iştirak etmişdir. İlin sonuna qədər "SOCAR Polymer"in ikinci layihəsi - Yüksəksıxlıqlı Polietilen Zavodu da istifadəyə veriləcək. Bu zavodlara qoyulan sərmayənin həcmi 800 milyon dollardan çoxdur. Əlbəttə, bizim qeyri-neft sənayemizin inkişafı üçün bu zavodların böyük əhəmiyyəti olacaq. Ölkəmizə böyük həcmdə valyuta gələcək. İlin sonuna qədər Azot Gübrəsi Zavodu istifadəyə verilməlidir. Orada da sərmayələr yüz milyonlarla dollar həcmindədir".

### "2018-ci il bizim enerji siyasətimizin inkişafı üçün önəmli il olmuşdur"

Dövlət başçısı müşavirədə, onu da vurğulayıb ki, 2018-ci il enerji siyasətinin inkişafında önəmli il olub: "2018-ci il bizim enerji siyasətimizin inkişafı üçün önəmli il olmuşdur. Bu ilin may ayında biz Bakıda "Cənub Qaz Dəhlizi"nin rəsmi açılışını qeyd etdik. Bu, tarixi hadisədir. Ondan bir ay sonra Türkiyədə TANAP layihəsinin açılışını etdik və "Cənub Qaz Dəhlizi" layihəsi uğurla icra edilir. Bütün bu dörd layihənin hamısında çox gözəl nəticələr var. Bu il biz qaz hasilatımızı artıracağıq, artıq "Şahdəniz-2"dən qaz gəlir. Gələn il, ondan sonrakı illərdə daha da artacaq. Yəni biz tam hədəfə çatmaq üçün bütün işləri görürük və mənə verilən son məlumatlara görə, "Cənub Qaz Dəhlizi"nin son hissəsi olan TAP layihəsinin icrası ilə bağlı da heç bir problem yoxdur".

Prezident İlham Əliyev müşavirədə "Cənub Qaz Dəhlizi" ilə nəql olunan mavi yanacağın getdikcə artacağını və bu layihələrin uğurla həyata keçirildiyini vurğulayıb: "Cənub Qaz Dəhlizi" layihəsi uğurla icra edilir. Bütün bu dörd layihənin hamısında çox gözəl nəticələr var. Bu il biz qaz hasilatımızı artıracağıq, artıq "Şahdəniz-2"dən qaz gəlir. Gələn il, ondan sonrakı illərdə daha da artacaq. Yəni biz tam hədəfə çatmaq üçün bütün işləri görürük".

Dövlət başçısı, onu da qeyd edib ki, Azərbaycan qazının ölkəmizin və Gürcüstanın ərazisindən keçərək, TANAP-la nəqlinin müvəffəqiyyətlə davam etməsini "SOCAR Turkey Enerji A.Ş."nin (STEAŞ) verdiyi məlumat da təsdiqləyir. Belə ki, bu boru kəməri ilə indiyə qədər Türkiyəyə təxminən 400 milyon kubmetr qaz daşınıb. Dekabr ayının sonuna qədər bu həcm 1 milyard kubmetrə çatacaq. Növbəti illərdə qaz nəqlinin artacağı da şübhəsizdir. 2019-cu il ərzində TANAP-la Türkiyəyə 2 milyard kubmetr, 2020-ci ildə 4 milyard kubmetr, 2021-ci ildə isə 6 milyard kubmetr Azərbaycan təbii qazının daşınacağı gözlənilir.

### Əli Həsənov: "Cənub Qaz Dəhlizi" 100 il Azərbaycan xalqına xidmət edəcək"

Prezidentin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov mayın 29-u Bakıda rəsmi açılışı keçirilən "Cənub Qaz Dəhlizi"nin əhəmiyyəti ilə bağlı qeydlərini açıqlayarkən, yazır ki, Azərbaycanın neft ehtiyatlarının dünya bazarına çıxarılması ilə bağlı məsələlər həll edildikdən və 2006-cı ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verildikdən sonra böyük Azərbaycan qazının Avropaya nəqli ciddi müzakirə mövzusuna çevrilib: "2007-ci il iyulun 3-də Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz" yatağından hasil edilən təbii yanacaq Bakı-Tbilisi-Ərzurum qaz kəməri ilə Türkiyənin qaz kəmərləri sisteminə daxil olub. "Nabukko" da daxil olmaqla, təklif edilən müxtəlif variantlar ətrafında aparılan çoxsaylı müzakirələr nəticə vermədiyinə görə, Azərbaycan yeni "Cənub Qaz Dəhlizi" ideyasını irəli sürüb.

2011-ci ildə Avropa İttifaqı ilə Azərbaycan Xəzərdən Avropaya



birbaşa qaz nəql edən marşrutların yaradılmasını dəstəkləyən birgə bəyanat-strateji enerji əməkdaşlığına dair memorandum imzalayıb və bununla da, "Cənub Qaz Dəhlizi" layihəsinin reallaşdırılması ilə bağlı tarixi addım atılıb".

Əlt Həsənov onu da qeyd edib ki, 2012-ci il iyunun 26-da Azərbaycan və Türkiyə hökumətləri arasında Trans-Anadolu təbii qaz boru kəməri sisteminə dair saziş imzalanıb və hər iki dövlətin qanunverici orqanları həmin sazişi ratifikasiya edib.

2013-cü il iyunun 30-da TAP layihəsi üzrə beynəlxalq saziş imzalanıb. TAP və "Şahdəniz" konsorsiumlarının imzaladığı sazişlə, ilk dəfə olaraq, Azərbaycan qazı Avropa bazarına birbaşa çıxış əldə edib. 2015-ci ildə "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının birinci iclası, sonrakı illərdə isə, daha üç toplantı keçirilib və layihənin reallaşdırılması ilə bağlı mühüm qərarlar qəbul olunub.

Beləliklə, Azərbaycanın liderliyi və beynəlxalq tərəfdaşları ilə birgə səyləri nəticəsində, "Cənub Qaz Dəhlizi"nin 4 komponenti - "Şahdəniz-2", Azərbaycandan başlayaraq Gürcüstan-Türkiyə sərhədinə kimi uzanan Cənubi Qafqaz Boru Kəməri, Türkiyə ərazisindən keçən TANAP və Yunanıstan, Albaniya və İtaliyanı birləşdirən TAP-la bağlı prinsipial razılaşmalar əldə olunub və layihənin gerçəkləşdirilməsinə başlanıb".

Əli Həsənov onu da vurğulayıb ki, məhz Prezident İlham Əliyevin qətiyyəti, milli maraqlara əsaslanan düşünülmüş və prinsipial siyasəti "Cənub Qaz Dəhlizi"nin həyata keçirilməsini təmin edib: "Cənub Qaz Dəhlizi" qarşıdan gələn 100 il ərzində Azərbaycan xalqına xidmət edəcək və milli iqtisadiyyatın inkişafında mühüm amil olacaq, Azərbaycanın təkcə enerji ixrac edən ölkə kimi deyil, həm də onu nəql edən və tranzit ölkə kimi əhəmiyyəti artacaq".

Bir sözlə, belə uğurlu layihələrin Azərbaycan iqtisadiyyatının davamlı inkişafının müsbət nəticəsidir ki, beynəlxalq maliyyə qurumları və reytinq agentlikləri də onu yüksək qiymətləndirir. Ümumdünya İqtisadi Forumunun "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı"nda Azərbaycanın reytinqdə, daha 2 pilləyə yüksələrək, 137 ölkə arasında 35-ci yerdə qərarlaşması deyilənlərin real nəticəslir. Ümumiyyətlə, ölkəmiz 2005-2017-ci illərdə "Qlobal Rəqabətlilik Qabiliyyəti" hesabatları üzrə mövqeyini 34 pillə yaxşılaşdıraraq, 69-cu yerdən 35-ci yerə yüksəlib və 2009-cu ildən MDB-də liderliyini qoruyur. 190 ölkənin biznes mühitini qiymətləndirən Dünya Bankının "Doing Business 2018" hesabatında da isə, son dövrlər aparılan davamlı islahatların məntiqi nəticəsi olaraq, Azərbaycan reytinq üzrə irəliləyərək, 57-ci mövqedə qərarlaşmışdır ki, bu da, onu deməyə əsas verir ki, Azərbaycan öz enerji siyasətini ardıcıl şəkildə irəliyə aparmaqla ölkə iqtisadiyyatı bundan sonra da, daha sürətlə inkişaf edəcək.

**RƏFİQƏ KAMALQIZI**

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Gəncə Dövlət Universitetinin əməkdaşlarına fəxri adların verilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Şəki şəhərinin tarixi hissəsinin qorunması ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev Beyləqan rayonunun Kəbirli-Eyvazalılar-Birinci Aşıqlı-Əlinəzərli avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

# Bakı “Ekspo 2025” Ümumdünya Sərgisinə ev sahibliyi etmək üçün unikal məkandır

## *Mehriban xanım Əliyeva: “Ümumdünya sərgisi bütün mədəniyyətlərə bərabərlik və hörmət prinsipinə əsaslanan müxtəlifliyi sərgiləmək üçün bir platformadır”*




***Siyasi cəhətdən stabil və daim inkişafda olan Azərbaycan dünyada müxtəlif sahələrə aid mötəbər beynəlxalq tədbirlərin və idman yarışlarının yüksək səviyyədə keçirildiyi əlverişli ölkə kimi tanınır. Müxtəlif dinlərə və etnik mənşəyə mənsub olan insanlar arasında multikulturalizm və qarşılıqlı hörmət ənənələri ilə zəngin olan Azərbaycanda belə tədbirlərin keçirilməsi sahəsindəki uğur və təcrübəsi yüksək dəyərləndirilir.***

Bu günədək Dünya Dini Liderlərinin Sammiti, Bakı Beynəlxalq Humanitar forumları, BMT-nin Sivilizasiyalar Alyansının VII Bakı Qlobal Forumu, Ümumdünya Mədəniyyətlərarası Dialoq forumları, “Bakı-2015” Birinci Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları və digər beynəlxalq tədbirlərə yüksək səviyyədə ev sahibliyi edən Azərbaycanın siyasi və iqtisadi müstəvidə dünya ölkələrinin etibarlı tərəfdaşına çevrilib. Azərbaycan uğurlu inkişaf strategiyasını tətbiq edərək, zəruri siyasi və iqtisadi islahatları həyata keçirir. 2009-cu ildə Azərbaycan Dünya Bankı tərəfindən “Dünyanın aparıcı islahatçı ölkəsi” kimi qiymətləndirilməsi, eləcə də, Dünya İqtisadi Forumunun “2017-2018 Qlobal Rəqabətlilik İndeksi” Azərbaycanı 137 ölkə arasında 35-ci yerə layiq görməsi ölkəmizin uğurlu inkişaf strategiyasını məntiqi nəticəsidir.

2000-ci ildən etibarən “Ekspo” hərəkatının fəal üzvü olan Azərbaycanın Bakının “Expo 2025” Ümumdünya Sərgisinə namizədliyinin irəli sürülməsinin, əlbəttə ki, bir çox şərtləndirici məqamları var. Ölkəmizin iqtisadi inkişafı, sabitliyin hökm sürməsi, yüksək səviyyədə təşkilatçılıq səviyyəsi ilə yanaşı, ölkəmizin indiyədək iştirak etdiyi bütün beynəlxalq sərgilərdəki pavilyonları və stendlərinin təşkilatçılar və iştirakçılar tərəfindən yüksək qiymətləndirilməsi və s. bu amillər sırasındadır. Belə ki, Azərbaycan pavilyonları 2015-ci ildə üç milyondan çox insanın ziyarət etdiyi Milanda, 2016-cı ildə Antalyada və 2017-ci ildə isə Astanada mükafatlar qazanıb. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva çıxışlarının birində Beynəlxalq Sərgilər Bürosunun işinə sadə töhfəmizin bu cür qiymətləndirilməsindən qürur duyduğumuzu ifadə edib: “Ümumdünya sərgisi bütün mədəniyyətlərə bərabərlik və hörmət prinsipinə əsaslanan müxtəlifliyi sərgiləmək üçün bir platformadır. Bu sərgilər qlobal müzakirələr və əməkdaşlıq üçün bütün beynəlxalq ictimaiyyəti nadir bir məkanda bir araya gətirir”. Mehriban xanım Əliyeva Bakının “Expo 2025” Ümumdünya Sərgisinə - bu universal platformaya ev sahibliyi etmək üçün ən unikal məkanlardan biri olduğunu vurğulayıb.

### AZƏRBAYCAN PAVİLYONU “MİLAN EKSPO” SƏRGİSİNİN İNCİSİDİR

Heydər Əliyev Fondunun və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə Azərbaycan ilk dəfə “Milan Ekspo 2015” Ümumdünya Sərgisində milli pavilyonla iştirak edib. Bu layihə Azərbaycanın tarixinin və mədəni irsinin, ölkənin zəngin ekoloji, enerji potensialı və nadir biomüxtəlifliyinin beynəlxalq miqyasda tanıdılması istiqamətində böyük rol oynayıb. 2015-ci il mayın 31-dən oktyabrın 31-dək davam edən “Milan Ekspo 2015” Sərgisini 23 milyondan çox insan ziyarət edib. Bu müddətdə Azərbaycanın milli pavilyonunda isə 3 milyon 250 mindən çox izləyici olub. “Azərbaycan: biomüxtəlifliyin xəzinəsi” adlandırılan dördmərtəbəli milli pavilyon Milanda 1800 kvadratmetr ərazidə təşkil olunmuşdu. Azərbaycan “Milan Ekspo 2015” Ümumdünya Sərgisinin bütün mərhələlərində seçilən dövlətlər sırasında olub. Dünyanın kütləvi informasiya vasitələri milli pavilyonun tikinti və dizayn işlərinin yekunlaşdırılmasına görə Azərbaycanın lider olduğunu qeyd ediblər və milli pavilyonu “Milan Ekspo” Sərgisinin incisi adlandırılıb.



Azərbaycanın “Milan Ekspo 2015” Ümumdünya Sərgisindəki milli pavilyonu sökülərək Bakıya gətirilib və Dənizkənarı Milli Parkın ərazisində yenidən qurulub. Bu, Dənizkənarı Milli Parkın ərazisində bütün fəsillərdə daimi istifadəyə uyğunlaşdırılıb. Burada Azərbaycan mətbəxini, musiqisini və mədəniyyətini təbliğ edən instalyasiyalar quraşdırılıb, müxtəlif işə xidməti göstərmək üçün binada müvafiq şərait yaradılıb, terras qurulub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Azərbaycan Respublikasını Birinci vitse-prezidenti, Azərbaycanın Birinci xanımı Mehriban Əliyeva pavilyonla tanış olublar. Burada “Dubay Ekspo 2020” Sərgisində qurulacaq Azərbaycan milli pavilyonunun layihəsi Prezident İlham Əliyevə təqdim olunub. Layihə ilə tanış olan dövlətimizin başçısı “Dubay Ekspo 2020” Sərgisindəki milli pavilyonun tikintisinə başlanılmasına dair müvafiq tapşırıqlar verib və “Dubay Ekspo 2020” Sərgisindəki milli pavilyonun da sərgidən sonra sökülərək ölkəmizə gətirilməsi məsələsinə baxılmasına dair tapşırıq verib.

“Milan Ekspo 2015” Ümumdünya Sərgisindəki Azərbaycanın milli pavilyonu Şimal və Cənub, Şərq və Qərb arasında körpü rolunu oynayan, qədim tarixi, zəngin mədəniyyəti ilə seçilən ölkəmizin bənzərsiz təbii və mədəni xəzinəsini əks etdirib. Onun yaradılmasında hər bir detala xüsusi diqqət yetirilib.

### “İNSAN KAPİTALINI İNKİŞAF ETDİRƏK, DAHA YAXŞI GƏLƏCƏK QURAQ”

Artıq Bakı şəhərinin “Ekspo 2025” Ümumdünya Sərgisinə namizədliyi ilə bağlı dünya ölkələrində təqdimatlar keçirilir. Təqdimatlarda Bakı şəhərinin “Ekspo 2025” Ümumdünya ev sərgisinə namizədliyi, bu istiqamətdə görülmüş və həyata keçiriləcək işlər barədə məlumat verilir. Azərbaycanın “Ekspo 2025” üçün təklif etdiyi “İnsan kapitalını inkişaf etdirək, daha yaxşı gələcək quraq” mövzusunun bəşəriyyət üçün aktual olduğu və beynəlxalq inkişaf gündəliyinə, xüsusilə də, BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri ilə uzlaşdığı diqqətə çatdırılır. Bu sərgi beynəlxalq inkişaf gündəliyində duran qlobal məsələlərinin müzakirəsi üçün universal platforma rolunu oynayacaq və bəşəri müxtəlifliyi təmin edərək bütün millətlərə iştirak etmək imkanı yaradacaqdır.

Bu günlərdə Parisdə Bakının “Ekspo 2025” Ümumdünya Sərgisinə namizədliyinə həsr olunan simpozium keçirilib. Tədbirdə insan kapitalının Azərbaycanın inkişafındakı rolu, ölkəmizin qlobal dialoq platformasına çevrilməsi və beynəlxalq tədbirlərə ev sahibliyi etməsi, Bakıda “Ekspo 2025” üçün nəzərdə tutulan park haqqında ətraflı məlumat verib. Simpoziumda “Bakı Ekspo 2025”in BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə uyğun olan istedad, sağlamlıq və nailiyyət kimi alt mövzularına toxunulub. Bacarıqlar, tədqiqatlar və innovasiyalar sahələrində ideyalar bütün dünyada insanların rifahının yüksəlməsinə töhfə verəcək.

Azərbaycanın Birinci vitse-prezidenti “İnsan kapitalının inkişaf etdirilməsi, daha yaxşı gələcəyin qurulması” mövzusunun, həqiqətən, hamını narahat edən bir məsələ olduğunu bildirib. Onun sözlərinə görə, bu mövzu dövrümüzün əsas çağırışını - texnologiyanın və artan bağlılığın bəşəriyyətə təsirini əhatə edir: “Bakı Ekspo 2025” Sərgisində düşünürük ki, texnologiyadan daha uzağa baxmaq, diqqətimizi rəhbərlərdən sıravi vətəndaşlara yönəldərək iqtisadiyyatların, cəmiyyətlərin və yaradıcılığın aparıcı qüvvəsi olan insanlar üzərində cəmləşdirmək mühüm əhəmiyyət kəsb edəcək”. Azərbaycanın Birinci vitse-prezidenti Bakıda keçiriləcək Ümumdünya Sərgisinin yeni bölgədə, yeni dövrdə yeni bir tarix yazmaq imkanı yaradacağını qeyd edib. “Bu sərgi, həmçinin, Azərbaycan xalqına bizim Beynəlxalq Sərgilər Bürosunun mümkün olan ən yaxşı tərəfdaşlarından biri ola biləcəyini nümayiş etdirmək fürsətini verəcək”.

Azərbaycanın “Ekspo 2025” Ümumdünya Sərgisinə ev sahibliyi etmək niyyəti ölkəmizin milli inkişaf strategiyasından irəli gəlir. “Ekspo” Sərgisinə ev sahibliyi etməsi ilə Azərbaycan öz iqtisadiyyatının, təhsil, səhiyyə və iş sektoruna yatırılan sərmayələr nəticəsində insan kapitalının daha da gücləndirilməsinə nail olacaq.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Azərbaycan dünyanın ən çox islahat aparan ölkəsi elan olundu

## Dünya Bankının "DoingBusiness 2019" hesabatında belə deyilir

***Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin elan etdiyi kimi 2015-ci ilin sonlarından başlayaraq neft qiymətlərinin aşağı düşməsinə baxmayaraq, Azərbaycanda aparılan islahatlar daha da dərinləşmiş və mahiyyətcə yeni xarakter kəsb etmişdir. Aparılan iqtisadi islahatlar nəticəsində ölkədə maliyyə sabitliyi və iqtisadi artım bərpa olunmuş, bir çox sahələrdə, xüsusilə kənd təsərrüfatı, qeyri-neft sənayesi və digər sektorlarda əhəmiyyətli irəliləyiş əldə edilmişdir.***




Respublika Prezidenti tərəfindən ölkədə sahibkarlığa dəstək məqsədilə biznes mühitinin bütün sahələri, xüsusilə biznesə başlama, tikinti üçün icazələrin alınması, elektrik təchizatı şəbəkələrinə qoşulma, maliyyə mənbələrinə çıxış imkanlarının artırılması, vergilərin ödənilməsi, əmlakın qeydiyyatı, xarici ticarətin aparılması üzrə əhəmiyyətli irəliləyiş baş vermişdir.

Dövlət-biznes tərəfdaşlığında qarşılıqlı inam daha da artmış, bu münasibətlər gələcək iqtisadi inkişafın təməl prinsipinə çevrilmişdir.

Azərbaycan Respublikası Prezidentinin güclü siyasi iradəsi və davamlı dəstəyi sayəsində aparılan kompleks iqtisadi islahatlar digər nüfuzlu beynəlxalq reytinqlərlə yanaşı, "DoingBusiness 2019" hesabatının da bütün indikatorlarını əhatə etmişdir. Nəticədə 2017-ci il və 2018-ci ilin ilk 4 ayında təkcə bu hesabat üzrə 30-a yaxın normativ hüquqi akt qüvvəyə minməklə 70-dən çox islahat tədbiri həyata keçirilmiş və qeydə alınması üçün "DoingBusiness" komandasına təqdim olunmuşdur.

Aparılan islahatlar nəticəsində vətəndaşların və sahibkarların məmnunluğunun artırılması, bu sahədə şəffaflığın təmin olunması ilə yanaşı, müxtəlif sektorlar üzrə inzibati prosedurların sayının və xərclərin minimuma endirilməsi, dövlət xidmətlərinin göstərilməsində keyfiyyətin daha da yüksəlməsinə nail olunmuşdur.

Respublika Prezidentinin rəhbərliyi altında həyata keçirilən islahatlar öz növbəsində "DoingBusiness 2019" hesabatında Azərbaycanın ümumi reytinqdə yeni rekorda imza atmasına, eləcə də əksər indikatorlar üzrə mövqeyinin daha üst səviyyəyə qalxmasına imkan vermişdir. Belə ki, 2018-ci il 31 oktyabr tarixində Dünya Bankı tərəfindən yayımlanan "DoingBusiness 2019" hesabatında Azərbaycan dünyanın 10 ən islahatçı dövlətləri siyahısına daxil edilərək dünyanın ən çox islahat aparan ölkəsi elan olunmuşdur.

Yeni hesabatda Azərbaycanın mövqeyi 2017-ci illə müqayisədə 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşmış, dünyanın bir çox ölkələrini geridə qoymaqla Müstəqil Dövlətlər Birliyi ölkələri arasında lider mövqeyə yüksəlmişdir.

Hesabata əsasənölkəmiz "Tikinti üçün icazələrin alınması" və "Kreditlərin alınması" indikatorlarının hər biri üzrə 100 pillə irəliləyərək ciddi nailiyyət əldə edilmişdir.

Bunlarla yanaşı, "Kiçik investorların maraqlarının qorunması" indikatoru üzrə dünyada 2-ci yerə yüksəlməyə, "Biznesə başlama" (9-cu yer) indikatoru üzrə isə ilk onluğa düşməyə nail olunmuşdur.

Bütövlükdə "DoingBusiness 2019" hesabatının 10 indikatorundan 8-i üzrə mühüm irəliləyiş qeydə alınmışdır.

Eyni zamanda, əmək bazarının tənzimlənməsi indikatoru üzrə də aparılmış islahatlar Dünya Bankının ekspertləri tərəfindən qəbul edilmişdir.

"DoingBusiness 2019" hesabatında deyilir: "Avropa və Mərkəzi Asiya bölgəsinə daxil olan Azərbaycan ən yaxşı təkmilləşdirməgöstəricilərinə malik 10 ölkə arasında və qlobal səviyyədə rekorda nail olaraq səkkiz sahə üzrə islahatlar aparmaqla, 2017-2018-ci illərdə biznes fəaliyyətinin daha da asanlaşdırılmasını təmin etmişdir." ("DOING BUSINESS 2019" - Trainingfor-Reform", World Bank Group, page 13.).

Bu uğurlar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi siyasətin alternativsiz olduğunu və aparılan islahatların cəmiyyətin bütün təbəqələrinin, o cümlədən biznes subyektlərinin mənafelərini əks etdirdiyini bir daha göstərməkdədir.

Qeyd etmək lazımdır ki, Dünya Bankının hər il hazırladığı "DoingBusiness" hesabatı biznes mühitinin asanlığının qiymətləndirilməsi üçün dünyada ən vacib və etibarlı reytinq göstəricisi hesab olunur. "Doing-Business" komandası ölkələr üzrə aparılan islahatları həm dövlət, həm də çoxsaylı biznes nümayəndələrindən, habelə məşhur konsaltinqşirkətlərindən toplanan sorğulara verilən cavablar əsasında qiymətləndirir. Aparılan islahatların yoxlanılması məqsədilə ölkələrə ayrı-ayrılıqda xüsusi ekspert missiyaları göndərilir, islahatların real praktikada tətbiqi yerində müvafiq meyarlarla araşdırılır. Nəticədə hər bir ölkənin həm ümumi, həm də 10 indikator üzrə xüsusi qiymət balı hesablanaraq mövqeləri müəyyən edilir.

"DoingBuisness" hesabatı xarici investorlar tərəfindən biznes mühitinə dair etibarlı mənbə kimi istinad olunan əsas reytinq göstəricisi olmaqla yanaşı, digər beynəlxalq təşkilatlar tərəfindən hazırlanan hesabatlarda ("Qlobal Rəqabətlilik Hesabatı", "Qlobal İnnovasiyalar İndeksi", "İqtisadi Azadlıq İndeksi", "Qlobal İmkanlar İndeksi" və s.) baza rolunu oynayır.



# Əli Həsənov: "Prezident İlham Əliyev şair Mikayıl Müşfiqlə bağlı məsələni şəxsi nəzarətinə götürüb"

***Azərbaycan poeziyasının inkişafında böyük rol oynamış, Stalin repressiyasının qurbanı olmuş və 1938-ci ildə güllələnmiş şair Mikayıl Müşfiqin qalıqlarının tapılması ilə bağlı son zamanlar kütləvi informasiya vasitələrində yayılan materiallar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin diqqətini cəlb edib.***

Cənab Prezident məsələnin araşdırılması üçün Milli Elmlər Akademiyası, Səhiyyə, Mədəniyyət nazirlikləri və digər əlaqədar qurumların nümayəndələrindən ibarət işçi qrupun yaradılması barədə göstəriş verib. Tapşırığa əsasən, Mikayıl Müşfiqə məxsus olduğu ehtimal edilən qalıqlar müvafiq qaydada DNK ekspertizasından keçiriləcəkdir. Əgər qalıqların həqiqətən ona məxsus olduğu təsdiqini taparsa, şairin yenidən dəfn olunması ilə bağlı bütün zəruri tədbirlər görüləcəkdir.

Bu haqda AZƏRTAC-a Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov məlumat verib.

Əli Həsənov onu da qeyd edib ki, cənab Prezident həmişə Azərbaycan mədəniyyətinə, mədəniyyət və incəsənət xadimlərinə, xüsusilə repressiya qurbanı olmuş ziyalılarımızın xatirəsinə böyük diqqətlə yanaşıb. Bunun bariz nümunəsi kimi, dövlətimizin başçısının 2017-ci ilin fevralında Bakının Yasamal rayonu ərazisində keçmiş Statistika dairəsi adlanan yerdə Mikayıl Müşfiqin heykəlinin demontajına münasibətini göstərmək olar. O vaxt cənab Prezident məsələnin araşdırılması, günahkarların cəzalandırılması, heykəlin dərhal öz yerində bərpa olunması ilə bağlı tapşırıq vermiş, həmin göstərişin qısa zamanda icra olunmasından sonra da heykəli ziyarət etmiş və önünə gül dəstəsi qoymuşdur. Əli Həsənov bildirib ki, Mikayıl Müşfiqin qalıqlarının aşkar olunması barədə yayılan məlumatlar hazırda dövlətimizin başçısının nəzarətindədir. Əminliklə demək olar ki, məsələnin ciddi araşdırılması ilə bağlı qısa zamanda müvafiq tədbirlər görüləcək və nəticə barədə ictimaiyyətə məlumat veriləcəkdir.

# Ərəb KİV-ləri: İslam Ölkələri İnformasiya Agentlikləri İttifaqı nümayəndələrinin Azərbaycana səfəri səmərəli keçib




İslam Ölkələri İnformasiya Agentlikləri İttifaqının nümayəndə heyətinin Azərbaycana səfəri ərəb ölkələri mətbuatı, o cümlədən Səudiyyə Ərəbistanının, Misirin, Bəhreynin, Omanın milli informasiya agentlikləri tərəfindən geniş işıqlandırılıb, səfərin məhsuldar və səmərəli keçdiyi vurğulanıb.

AZƏRTAC xəbər verir ki, ərəb mətbuatında İttifaqa daxil olan nüfuzlu media qurumlarının nümayəndələrinin ölkəmizdə keçirdiyi görüşlər barədə məlumatlar yer alıb. Qeyd olunub ki, bu görüşlərdə İslam Ölkələri İnformasiya Agentlikləri İttifaqı və onun fəaliyyətindən, Azərbaycanın İslam həmrəyliyinin gücləndirilməsinə verdiyi dəyərli töhfələrdən və islamofobiya hallarına qarşı kəskin mövqeyindən geniş söhbət açılıb. Ərəb KİV-ləri nümayəndə heyəti ilə AZƏRTAC-da keçirilən görüşə də xüsusi diqqət ayırıb. Vurğulanıb ki, görüşdə AZƏRTAC-ın İdarə Heyətinin sədri, Dünya Xəbər Agentlikləri Konqresinin və OANA-nın prezidenti Aslan Aslanov agentliyin tarixi, strukturu, beynəlxalq əlaqələri, habelə bu günlərdə Bakıda keçirilmiş VI Beynəlxalq Humanitar Forum haqqında ətraflı məlumat verib. Bildirilib ki, Forum çərçivəsində AZƏRTAC-ın təşkilatçılığı ilə "Yanlış məlumatlandırma siyasəti - müasir dünyada sabitliyə təhdid" mövzusunda keçirilən işçi sessiyada feyk xəbərlərin dünyada doğurduğu yeni çağırışlardan, təhdidlərdən bəhs olunub, yanlış məlumatlandırma siyasətinə qarşı birgə mübarizənin vacibliyi vurğulanıb.

Ərəb mediasında dərc olunan yazılarda İslam Ölkələri İnformasiya Agentlikləri İttifaqının büro üzvü olan AZƏRTAC-ın qurumun işində fəal iştirakının məmnunluq doğurduğu qeyd edilib, həmçinin nümayəndə heyətinin Azərbaycandakı tolerant mühit, Bakının gözəlliyi, hər addımda müşahidə olunan inkişafla bağlı təəssüratları əksini tapıb.

# Paşinyan Avropadan 3 milyon avro "diləndə" bildi

**_17-18 oktyabr tarixlərində Avropa İttifaqının (Aİ) xarici fəaliyyət xidmətinin yüksək vəzifəli rəsmisi Tomas Mayr Hartinq və Aİ-nin yardımlarını əlaqələndirən Vasillis Maraqos Ermənistanda səfərdə olublar. SİA-nın əldə etdiyi məlumata görə, səfərin nəticəsi kimi Aİ növbədənkənar parlament seçkilərinin şəffaf və beynəlxalq standartlara uyğun keçirilməsi məqsədilə Ermənistana 3 milyon avro vəsaitin ayrılmasına qərar verib._**



Maraqlısı odur ki, Aİ 2017-ci ilin aprelində keçirilmiş bundan öncəki parlament seçkilərinin təşkili üçün vaxtilə 7 milyon avro ayırmışdı. Lakin beynəlxalq müşahidə missiyasının hesabatına əsasən seçki prosesində ciddi pozuntu və saxtakarlıqlara yol verilməsi, o cümlədən rüşvət müqabilində səslərin alınması, dövlət qulluqçuları və özəl sektor nümayəndələrinə təzyiqlərin edilməsi və s. faktların üzə çıxması Aİ-ni çətin vəziyyətə salmışdır. Axı Aİ öz qiymətləndirməsində Ermənistandakı seçki prosesinin o qədər də bərbad olmadığını əsaslandırmağa çalışmışdı. Lakin 2018-ci ilin aprel ayında hakimiyyəti ələ keçirmiş Nikol Paşinyan özü də seçkilərin anti-demokratik şəraitdə keçirildiyini iddia edərək, yeni parlamentin legitim olmadığını irəli sürmüşdür. Görəsən Paşinyan ölkədə hərbi diktatura rejiminin saxlanılmasında Avropa İttifaqının Sarqsyan hökuməti ilə əlbir olduğunu demək istəyirdi?

Məlum olur ki, küçələrin hay-küyçüsü Paşinyan özü hələ ilk günlərdən Avropadan pul dilənməyə başlamışdır. NATO və Avropa İttifaqının təşkil etdiyi mötəbər beynəlxalq toplantıların keçirildiyi məkanları "dilənçi guşəsinə" çevirməklə Avropalı dövlət başçılarından mədəd uman zavallı Paşinyan haradan bilsin ki, küçə yürüşləri psixologiyası yalnız ac-yalavac erməniləri aldada bilər? Nəticə göz qabağındadır, Avropa İttifaqı Ermənistana göstərəcəyi maliyyə dəstəyinin həcmini 2 dəfə azaltdı. Avropa İttifaqı rəsmiləri açıq şəkildə elan etdilər ki, ondan başqa heç bir təşkilat Ermənistana pul ayıran deyil. Əgər belədirsə niyə Avropa İttifaqı maliyyə dəstəyini 2 dəfə artırmaq əvəzinə elə o qədər azaltdı? Məgər ölkədə səsvermə hüququna malik şəxslərin sayı azalıb? Yoxsa Aİ fikirləşir ki, Paşinyan Ermənistandakı siyasi durumu sabitləşdirmək əvəzinə Aİ-nin dəstəyi ilə öz diktaturasını yaratmaq istəyir? Niyə də yox. Görünür Aİ Paşinyanın demokratiya nağıllarına inanmır və onun populist addımlarına və reallığa söykənməyən vədlərinə alət olub ləkələnməkdən kifayət qədər ehtiyatlanır. Budur, Aİ Paşinyan hökumətinin populist və yarıtmaz siyasətinin ilk bəhrəsini gördü. Venesiya Komissiyasının tövsiyələrini əks etdirən və Aİ-nin vaxtilə tərifdən göylərə qaldırdığı seçki məcəlləsinə dəyişikliklər paketi 30 oktyabr tarixində Ermənistan parlamentində qəbul edilmədi. Yəqin ki, Avropa təsisatları avronun Ermənistana dəyər gətirmədiyini anlamağa başlayacaqlar.

# "Ermənistanda iqtisadi fəallıq çox aşağıdır"



"Ermənistanın iqtisadi fəallığı heç də yaxşı deyil, lakin bunun üzərində dayanmaq lazım deyil, çünki problem ondadır ki, ictimaiyyət bunu necə görür və nə gözləyir". SİA xəbər verir ki, erməni iqtisadçısı Babken Tunyanın jurnalistlərlə görüşündəki fikirlərini aysor.am saytı yazıb. "Əgər biz iqtisadiyyatın kölgə payına qarşı mübarizənin necə aparılmasından danışırıqsa, deməli, bu mübarizənin nəticələri iqtisadi göstəricilərdə əks olunmalıdır", deyən erməni iqtisadçısına görə, bu amil heç də özünü göstərmir: "Əgər biz iqtisadi fəallığın 0.2% artığını müşahidə ediriksə, bu o deməkdir ki, kölgə iqtisadiyyat payına qarşı mübarizədə bu rəqəm daha çox olmalıydı. Ancaq bu səviyyədədirsə, demək ki, həqiqətə qalanda iqtisadi fəallığın artımı çox azdır". Tunyan həmçinin qeyd edib ki, bu kimi məsələlərdə yaranan problem hakimiyyət daxilində normal təşkilatçılığın olmamasıdır.

# "JAMANAK": "Partiyalar panik əhval-ruhiyyədədir"




Ermənistanın "Jamanak" qəzeti yazır ki, partiyaların çoxu panik əhval-ruhiyyədədir. SİA xəbər verir ki, adıçəkilən nəşrin yazdığına görə, məhz parlamentdə iki oxunuş nəticəsində qəbul olunmayan yeni seçki kodeksinin iflası siyasi partiyaların növbədənkənar seçkilərdə iştiraklarını çətinləşdirir. "Əgər seçki kodeksinin dəyişdirilməyi halda partiya 2 faiz səslə parlamentdə ola bilərdisə, indi bunu etmək mümkün deyil", erməni mətbuatı qeyd edir. SİTAT: "Bundan əlavə, bir çox partiyalarda reytinq siyahısına daxil olunmaq üçün namizəd sayı çatışmır, eləcə də bu amil həmin siyasi təşkilatların seçkilərdəki iştirak mümkünlüklərini aşağı salır".

Erməni media qurumu qeyd edir ki, növbədənkənar parlament seçkilərində iştirak edib-etməmək məsələsi artıq "Orinar yerkir", "Erməni milli konqresi", "İrs" və s. kimi partiyalarda fəal şəkildə müzakirə olunmaqdadır.

# "Azərbaycanın tolerantlıq modeli dünyaya təqdim olunur"




"Humanitar Beynəlxalq Forumun Bakıda keçirilməsi Azərbaycanın tolerantlıq modelinin dünyaya təqdim olunması baxımından xüsusi əhəmiyyət kəsb edir". Bunu SİA-ya açıqlamasında Misirin Yaxın Şərq Xəbər Agentliyinin (MENA) böyük redaktoru Ayman Eraky deyib. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən forumla bağlı irəli sürülən təşəbbüsü yüksək qiymətləndirdiyini deyən qonaq söyləyib ki, ümumilikdə Bakı Forumu təkcə Azərbaycan üçün deyil, eləcə də bütün dünyada mövcud olan problemlərin müzakirəsi baxımından çox əhəmiyyətli platformadır.

Ayman Eraky bildirib ki, Azərbaycanın tolerant ölkə olması ilə bağlı müəyyən məlumatlara malik olsa da, Forum bu məlumatların daha da genişləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdi: "Prezident İlham Əliyevin Forumun açılışında söylədiyi nitqi çox diqqətli və maraqla dinlədim. Azərbaycandakı iqtisadi inkişaf, tolerantlıq barədə məlumatım olsa da, Dövlət başçısının çıxışından ölkənizlə bağlı daha geniş informasiya əldə etmiş oldum.

# "Həmsədərlər kənara çəkilsə, münaqişə müharibəsiz həllini tapar"

"ATƏT-in Minsk qrupu həmsədrlərinin regiona səfərindən müsbət heç nə gözləmirəm. Soyqırımına məruz qalan Azərbaycan vətəndaşı kimi deyə bilərəm ki, artıq uzun illərdir onlar riyakar, qeyri-səmimi davranışları davam etdirməkdədirlər". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Elman Məmmədov deyib.

O bildirib ki, həmsədrlərin budəfəki səfərləri də 1993-ci ildən bu günə qədər edilən səfərlərdən fərqlənməyəcək. Onun sözlərinə görə, çünki Dağlıq Qarabağ münaqişəsinin həllində vasitəçilik missiyasını üzərinə götürən ATƏT-in Minsk qrupu bütün fəaliyyəti dövründə işğala məruz qalan Azərbaycanla işğalçı dövləti eyni gözdə görüb, fərq qoymadan eyni fikirləri səsləndiriblər: "Onlar hər zaman gərginliyin azaldılması, dayanıqlı sülhə, atəşkəsə nail olmaq və digər bu kimi iyrənc mövqe sərgiləyiblər. Həmsədrlərin uzun illik fəaliyyəti nəticəsində Azərbaycanın bir qarış belə torpağı işğaldan azad edilməyib. Ölkəmizin bu sahədə yalnız öz gücü hesabına uğur əldə edib. Bu illər ərzində işğalçıya, soyqırımı törədən dövlətə qarşı hər hansı sanksiya tətbiq olunubmu? Əlbəttə ki, yox!".

Deputat söyləyib ki, həmsədrlərin uzun illərdir fəaliyyətləri nəticəsində Azərbaycanın işğal altında olan ərazilərdə qeyri-qanuni məskunlaşmanın belə qarşısı alınmayıb: "Əslində onlar etməli olduqları heç nəyə əməl etməyib və etməyəcəklər. Çünki, həmsədrlər öz fəaliyyətlərində səmimi deyillər. Onların söylədikləri riyakarlıqla, boğazdan yuxarı deyilən fikirlərdir. 1993-cü ildən bu günə qədər burada tərəflər nisbəti hər zaman dördün birə olub. Bir Azərbaycan olub, 4 isə işğalçı dövlətlə 3 həmsədr olublar. Onlar hər zaman Dağlıq Qarabağ münaqişəsinin həllində status-kvonun qorunmasına saxlanmasına çalışıblar".

E. Məmmədov vurğulayıb ki, Azərbaycan torpaqları danışıq, sülh yolu ilə işğal olunmayıb: "Bizim torpaqlarımızı müharibə, güc, soyqırımı, kütləvi qırğınlar vasitəsilə işğal edilib. Ancaq bu gün onlar bizi sülhə əməl etməyə, danışıqlara yolu illə məsələni həll etməyə çağırırlar. Məgər ermənilərin bizim torpaqlarımızı sülh və danışıqlarla işğal edib? Bu baxımdan düşünürəm ki, həmsədrlərdən bundan sonra da problemin həlli ilə bağlı ədalətli mövqe gözləməyə dəyməz".

# "ABŞ məsələyə sərt yanaşsa, problem ölü nöqtədən çıxa bilər"

"ATƏT-in Minsk qrupu həmsədrlərinin Azərbaycana səfərindən optimist heç nə gözləmirəm. Çünki, onlar artıq illərdir ki, ölkəmizə səfər edir, görüşlər keçirir, müxtəlif söhbətlər aparır, ümumi ifadələr işlətməklə kifayətlənirlər. Azərbaycana isə Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı konkret təkliflər və real nəticələr lazımdır". Bu fikirləri SİA-ya açıqlamasında politoloq Fikrət Sadıqov deyib. O bildirib ki, əgər ATƏT-in Minsk qrupunun həmsədrləri həqiqətən də real vasitəçidirlərsə və müəyyən səlahiyyətlərə sahibdirlərsə, o zaman onlar münaqişənin həlli ilə təkliflərini bağlı beynəlxalq hüquq normalarına uyğun və reallığa əsaslanan şəkildə irəli sürməlidirlər: "Reallıq da odur ki, Azərbaycanın 20 faiz torpaqları işğal altındadır".

Politoloq söyləyib ki, Ermənistanda vəziyyət müəyyən qədər dəyişib və daxili siyasi vəziyyət mürəkkəbdir: "Əslində həmsədrlər Paşinyanın bir sıra bəyanatlarından sonra fəaliyyətlərinə düzəliş edə bilərlər. Bizə bu lazımdır. Azərbaycanı sülhə çağırmaq, kompromislərə getmək, güzəştlər etmək lazım deyil. Biz artıq 25 ildir ki, eyni fikirləri eşidir və artıq problemin həllində özümüzdən başqa heç kimə arxalanmırıq".

F.Sadıqov ABŞ prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Con Boltonun regiona səfərinə diqqəti yönəldərək qeyd edib ki, Bolton Ermənistana səfər zamanı bir çox reallıqları üzə çıxarmış oldu: "Bildiyiniz kimi Con Bolton İrəvanda səfərdə olarkən bildirdi ki, Dağlıq Qarabağ münaqişəsi həll olunmalıdır. Reallıqlar onu göstərir ki, inkişaf ancaq problemin həllinə bağlıdır. Boltonun həqiqətləri ifadə edən fikirlərini ABŞ-ın yanaşması olaraq müsbət qiymətləndirirəm. Əgər ABŞ məsələyə daha sərt yanaşsa, addımlar atsa, o zaman problemin ölü nöqtədən çıxmasına şübhə etmirəm. Biz bunu istəyir və gözləyirik. Hesab edirəm ki, həmsədrlərin Azərbaycana səfəri zamanı bu məsələlərin ciddi şəkildə müzakirə olunacaq".

# Kosmik sənayesinin inkişafı ölkəmizə valyuta axınını gücləndirəcək



***Ölkəmizdə siyasi sabitlik, dinamik sosial-iqtisadi inkişaf, cəmiyyətimizin demokratikləşməsi, nəhəng enerji və nəqliyyat layihələrinin reallaşması, eləcə də, informasiya və kommunikasiya texnologiyalarının tətbiqi, rabitənin inkişafı sahəsində nailiyyətlər Azərbaycanın qabaqcıl ölkələr sırasına çıxmasına imkan yaradıb. Orbitdə özünün telekommunikasiya peyki olan azsaylı ölkələrdən biri olan Azərbaycanın bu yaxınlarda "Azərspace-2" peykinin orbitə buraxılması daha bir uğur olaraq tarixə yazıldı.***

Son beş il ərzində Azərbaycan orbitə 3 peyk çıxara bilib: "Azərspace-1" telekommunikasiya peyki, "Azərsky" müşahidə peyki və "Azərspace". Sözsüz ki, bu uğurlar Azərbaycanda yüksək texnologiyaların tətbiqinə və ölkədə kosmik sənayenin yaradılmasına göstərilən böyük diqqətin məntiqi nəticəsidir. Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin prioritet elan olunması, 2008-ci ildə "Azərbaycanda kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması", 2009-cu ildə ölkədə "Kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramının təsdiq edilməsi haqqında" Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamları bu sahənin inkişafına dövlət səviyyəsində göstərilən diqqətin əyani təsdiqidir. 2010-cu ildə Prezident İlham Əliyev tərəfindən "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin təsis edilməsi haqqında Sərəncam imzalandı. Həmin quruma telekommunikasiya peykinin istehsalı və orbitə çıxarılması, əsas və ehtiyat Yerüstü Peyk İdarəetmə Mərkəzinin yaradılması ilə bağlı xüsusi tapşırıq verildi. Azərbaycan, Avropa və Amerika mütəxəssislərinin birgə səylərinin nəticəsi olan, amma Azərbaycan adı ilə ərsəyə gələn "Azərspace-1" Azərbaycanın elmi-texniki və iqtisadi qüdrətinin daha bir göstəricisidir. İstismar müddəti 15 il olan "Azərspace-1" peyki Avropa, Afrika, Mərkəzi Asiya, Qafqaz ölkələri və Yaxın Şərq regionunu əhatə edir. Eyni zamanda, Azərbaycanın ilk telekommunikasiya peyki informasiya müstəqilliyinin və təhlükəsizliyinin təmin edilməsi, ölkəmizdə kosmik sənayesinin inkişaf etdirilməsi ilə yanaşı, kommersiya xarakterli və gəlirli bir layihədir. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bu peykin fəaliyyətinin iqtisadi cəhətdən də səmərəli olacağını vurğulamışdır: "Gələcəkdə bu sahənin hər bir ölkə üçün nə qədər vacib olduğunu, əminəm ki, hər kəs görəcəkdir. Hər bir ölkənin uğurlu və dayanıqlı inkişafı üçün informasiya-kommunikasiya texnologiyaları sahəsi həlledici rol oynayacaqdır. Mən buna əminəm. Mən çox şadam ki, biz bu istiqamətdə bütün işləri planlı, məqsədyönlü şəkildə aparırıq. Bütün addımları atırıq ki, ölkəmiz daha da güclənsin, Azərbaycan daha da müasir dövlətə çevrilsin".

### "AZƏRKOSMOS" ASC PEYK VƏ TELEKOMMUNİKASİYA XİDMƏTLƏRİNİN İXRACINDAN 16,7 MİLYON ABŞ DOLLARI MƏBLƏĞİNDƏ GƏLİR ƏLDƏ EDİB

Azərbaycan Prezidenti İlham Əliyev doqquz ayın yekunları ilə bağlı çıxışında qeyri-neft sənayesi ilə fikirlərini bildirərkən, xüsusilə, bu yaxınlarda orbitə çıxarılmış "Azerspace-2" peykini qeyd edib: "Bu, böyük nailiyyətdir. Bu, kosmik dövlət kimi Azərbaycanın mövqelərini daha da möhkəmləndirir. Bizim indi 3 peykimiz var. "Azerspace-2" peykinin orbitə çıxarılması bizim böyük qələbəmizdir. Eyni zamanda, bu sahədə görüləcək işlər bizə əlavə vəsait gətirəcək. Onu da, qeyd etməliyəm ki, peykin imkanlarının, demək olar yarısı və bəlkə də yarıdan çoxu artıq satılıb. Bundan sonra qalan təqribən, 40 faiz, hələ ki, bölüşdürülməyib. Peykin xidmət potensialı, o da bölüşdürüləcək. Bu, kommersiya baxımından çox əlverişli layihədir, özünü tam doğruldacaq və bizə böyük həcmdə valyuta gətirəcək. Bu, bir ixrac növüdür. Eyni zamanda, kadr hazırlığı, texnologiyaların inkişafı baxımından çox önəmli layihədir. Biz haqlı olaraq, fəxr edə bilərik ki, bizim indi 3 peykimiz vardır".

Doqquz ayda "Azərkosmos" ASC tərəfindən dünyanın 22 ölkəsinə xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilib. Bu, onu göstərir ki, qeyri-neft sənayesində ölkəmizi daha böyük uğurlar gözləyir. Peyklərin orbitə çıxarılması Azərbaycanda kosmik sənayenin inkişafında uğurlu addımlardır. Dövlət başçısını qeyd etdiyi kimi, Azərbaycan qısa müddət ərzində, dünyanın kosmik klubunun dəyərli üzvünə çevrilibdir: "Azərbaycan qarşıya qoyduğu bütün vəzifələri uğurla icra edir. Bizim yolumuz inkişaf yoludur, tərəqqi yoludur və bu gün Azərbaycan dünyada müasir texnologiyaların inkişafında öz dəyərli sözünü deyir. "Azərspace-2" telekommunikasiya peykinin orbitə çıxarılması bizim növbəti tarixi qələbəmizdir. Bundan sonra da Azərbaycan yalnız uğurlar, qələbələr yolu ilə gedəcək."

***Zümrüd BAYRAMOVA***

## Bir qrup media nümayəndəsi Ukraynaya səfər edib



Azərbaycanın bir qrup media nümayəndələri və turizm sahəsində çalışan menecerlər Ukraynada təşkil olunacaq foruma qatılmaq üçün bu ölkəyə səfər ediblər. SİA-nın verdiyi məlumata görə, səfərin ilk günündə qonaqlar Ukraynanın Karpat dağlarında müxtəlif istirahət mərkəzləri, otellərlə, eləcə də tarixi əhəmiyyətli eksponatlarla tanış olublar. Tur rəhbəri Marina Yaquşova Karpat ərazisinin tarixi haqqında qonaqlara dolğun məlumat verib və Karpatın özəlliyindən danışıb. Qeyd edək ki, 5 günlük səfər çərçivəsində forum iştirakçıları üçün Ukraynanın Livov şəhərinə ekskursiyalar təşkil olunacaq, həmçinin Livovun qubernatoru ilə də görüş olacaq.

## "Azərbaycan Diaspor Gəncləri" təşkilatı fəaliyyətə başlayıb

Xaricdə yaşayan Azərbaycan əsilli gəncləri özündə birləşdirən "Azərbaycan Diaspor Gəncləri" təşkilatı artıq fəaliyyətə başlayıb. Diasporla İş üzrə Dövlət Komitəsinin təşəbbüsü və təşkilatçılığı ilə keçirilmiş "Cümhuriyyətin 100 illiyi" adlı I Yay Düşərgəsində təsis edilən təşkilatın əsas məqsədləri Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə daha dolğun şəkildə çatdırılması, Azərbaycanın tarixi-mədəni irsi və adət-ənənələrinin intensiv təbliği, azərbaycanlı gənclərin və tələbələrin sıx əməkdaşlıq şəraitində, koordinasiyalı fəaliyyətinin təmin edilməsi, o cümlədən, yaşadıqları ölkələrin cəmiyyətlərinə inteqrasiyanın gücləndirilməsidir. Təşkilatın müvafiq əsasnaməsi, nizamnaməsi və fəaliyyət planı işlənib-hazırlanmışdır ki, bu da Azərbaycan diasporunun inkişafına gənclərin töhfə verməsinə zəmin yaradacaqdır.

"Azərbaycan Diaspor Gəncləri" təşkilatının müasir dizaynda, həmçinin, milliliyi özündə əks etdirən loqo və sloqanı hazırlanıb. Eyni zamanda, "Wikipedia" açıq ensklopediyasında fəaliyyət göstərmək məqsədilə işçi qrup da yaradılıb. Qrup artıq Azərbaycanın milli qəhrəmanları ilə bağlı məqalələr yerləşdirib, Azərbaycanla bağlı həqiqətlərin müxtəlif dillərdə daha geniş kütləyə çatdırılması istiqamətində çalışır. İşçi Qrupun Amerika-Kanada, Avropa, Afrika, Asiya ölkələri, Türkiyə, Rusiya, Gürcüstan üzrə fəaliyyət göstərən üzvləri yaşadıqları ölkələrdə bir çox layihələrin həyata keçirilməsini planlaşdırırlar.

Qeyd edək ki, ADG Diaspor Gənclərinin I Yay Düşərgəsi zamanı yaradılıb. 22-28 avqust tarixlərində təşkil olunan düşərgədə ABŞ, Kanada, Yaponiya, Malayziya, İsveç, Rumıniya, İtaliya, İndoneziya, İngiltərə, bir sözlə, 37 ölkədən 140 diaspor gənci iştirak edib.

***ZÜMRÜD***

## Sərhəddə ermənilərin kütləvi köçü



Ermənistanın sərhəd kəndlərinin son illərdə düşdüyü acınacaqlı vəziyyət əhalinin kütləvi köçü ilə müşayiət olunur. Naxçıvanla həmsərhəd olan kəndləri taleyin ümidinə buraxan Ermənistan hökuməti sanki onları biryolluq unudub. Naxçıvan Muxtar Respublikasının Culfa rayonunun Ləkətağ kəndi istiqamətində yerləşən Ermənistanın Arevis kəndi də öz acınacaqlı halı ilə bunu təsdiq edir.

Kəndin küçələrindəki cığırları ot basıb. Yolların kələkötür, səliqəsiz relyefi ümumiyyətlə, bura uzun illərdir insan ayağının dəyməmədiyini göstərir. Təmirsiz binalar, damları uçuq evlər, suya həsrət qalan dağılmış bulaq, yarıuçuq tikililər 21-ci əsrdəki erməni kəndlərinin real simasına çevrilib.

# Evimizi bəzəyən təhlükəli “gözəllik”

*Dünyanı narahat edən əsas problemlərdən biri plastik qabların insan sağlamlığına eləcə də ətraf mühitə vurduğu zərərdir. Bu problemin qarşısının alınması istiqamətində həm dünya ölkələri, həm də beynəlxalq təşkilat tərəfindən addımlar atılır, ümumiyyətlə, plastik qablardan imtina etmək məqsədilə mühüm təşəbbüslər irəli sürülür. Artıq dünyanın 50 ölkəsi bu istiqamətdə iş görüb, hətta BMT-nin indiyə kimi yaydığı ən böyük hesabatda da məsələyə geniş yer ayrılıb. Bəzi şəhər və ölkələrdə plastik qablardan istifadəyə ümumiyyətlə, qadağa qoyulmasına baxmayaraq, BMT-nin hesabatında atılan addımların azlığı qeyd olunur.*



Ekspertlər plastik tullantıların idarə olunmaması nəticəsində çaylar və dənizlər təbii yolla həll olunmayan zibillə dola biləcəyi ilə



bağlı çağırışlar edir, bu problemin daşqınlara səbəb olduğunu bildirirlər. Mütəxəssislər plastik qabların ətraf mühitə vurduğu zərərlərlə yanaşı, onun heyvan ölümünə də səbəb olduğunu açıqlayaraq, Tailand sularında ölən balinanın qarnından 8 kilo (80 ədəd plastik paket) çıxmasını buna misal olaraq göstərirlər. Ümumiyyətlə, polietilenin çürüyərək yox olması üçün torpaqda 800 il, dənizdə isə 400 il vaxt lazımdır.

Bu qlobal problemin Azərbaycan da yan keçmədiyini desək yanılmarıq. Belə ki, ölkəmizdə mağazalarda təklif olunan məhsulların əksəriyyəti polietilen və plastik qablaşdırmada olduğunun hamımız şahidiyik. Məsələ dəfələrlə Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən qabardılaraq bildirilib ki, plastik qabların əvəzinə kağız, şüşə və parça materialından istifadə daha məqsədəuyğundur.

Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvi, kimya elmləri doktoru, professor İslam Mustafayev söyləyib ki, hər bir adam il ərzində 250 kiloqram zibil istehsal edir ki, onun da 6-8%-ni polietilen və plastik qablar təşkil edir.

Onun sözlərinə görə, polietilen və plastiklərin torpağa qarışması üçün yüz illərlə vaxt lazımdır: “Atılan plastik tullantılar nəinki həmin ərazilərin ekoloji vəziyyətinin pozulmasına və antisanitar vəziyyətin yaranmasına gətirib çıxarır”.

Alimin fikrincə, ətraf mühit üçün zərərli olan bu təhlükəli zibillərdən xilas olmaq üçün ondan təkrar xammal kimi istifadə etmək lazımdır: “Onları yandırmaq da çıxış yolu deyil. Plastik zibillərin yandırılması zamanı ayrılan zəhərli qazlar minlərlə kubmetr havanı zəhərləyir. Plastik qabların dənizə atılması isə Xəzər dənizinin su bioloji resurslarına məhvedici təsir göstərir. Belə ki, dənizə atılan plastik tullantılar günəşin, dalğaların və bakteriyaların təsiri ilə mikro-plastiklərə parçalanır. Nəticədə suda yaşayan canlı orqanizmlər-balıqlar, molyusklar, planktonlar bu mikro-plastikləri qəbul edirlər və onların orqanizmində fəsadlar yaranır. Belə şəraitdə olan balıqlar insanlar tərəfindən qida kimi qəbul edildikdə, insanların sağlamlığında müxtəlif fəsadlara səbəb olur. Beləliklə ətraf mühitə bu cür laqeyd və etinasız yanaşma son nəticədə dövr edərək elə məhz insanlara mənfi təsirini göstərir”.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən bu cür halların qarşısının alınması məqsədilə iməciliklər, müxtəlif təmizlik aksiyaları və mütəmadi reydlərin keçirildiyini deyən İ. Mustafayev qeyd edib ki, bu tipli aksiyaların keçirilməsində məqsəd plastik tullantıların ətrafa atılmasının fəsadlar yarada biləcəyinin dərk edilməsinə, təbiətə olan münasibətin müsbət mənada dəyişməsinə nail olmaqdır: “Təbiətin qayğımıza ehtiyacı var!”

ARAŞDIRMA

## “Plastik qablardan



## bişmiş qidaların saxlanılmasında istifadə etmək düzgün deyil”

Səhiyyə Nazirliyi Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin şöbə müdiri İmran Abdullayev söyləyib ki, qida saxlanmasında plastik material təbii ki, digər materialları - ağac materialları, keramikanı, şüşəni əvəz edə bilməz. Plastik materialın markaları var və tərkibində olan kimyəvi maddələrin qidaya keçməməsi üçün zaman-zaman bunlar araşdırılır, o qidalarla təması müəyyənləşdirilir və sonra istifadəsinə icazə verilir. Bu qabların çeşidləri çoxdur. Zibil daşınmasında, kimya sənayesində, eyni zamanda qidada istifadə edilən çeşidləri var. Plastik qablar şorbaların saxlanması üçün nəzərdə tutulmayıb Çünki, şorba özü duzlu məhlul olduğuna görə, plastik qabı aşılaya bilər. Plastik qablar daha çox texniki məqsədlər üçün yararlı olduğuna görə, bu qablardan bişmiş qidaların saxlanılmasında istifadə etmək düzgün deyil”.

## Sağlamlığımız üçün ziyanı?

Azərbaycan Tibb Universitetinin kafedra müdiri İbrahim Əhmədov söyləyib ki, yuxarıda sadalanan materiallar fərqli texnologiya əsasında hazırlanmaqla yanaşı, hərəsinin özünün tətbiq sahəsi var.

Onun sözlərinə görə, qida məqsədilə tətbiq edilən birdəfəlik qablar sayılır ki, onun təkrar istifadəsinə yol verməк olmaz: “Belə məhsullar qida mübadiləsinə, immun sistemə, allergik xəstələrə təsir göstərə bilər”.

Təcili Tibbi Yardım Stansiyasının həkimi da açıqlamasında plastik qablaşdırmaların, sellofan paketlərin insan orqanizmi üçün həddsiz ziyanlı olduğunu bildirib: “Azərbaycanda da bu mövzu ilə bağlı geniş müzakirələr aparılır, müxtəlif sosial aksiyalar həyata keçirilir. Görürük ki, könüllü dəstələr dəniz sahilinin təmizlənməsinə cəlb edilir, alış-veriş mərkəzlərində kağız torbalardan istifadə olunur və s. Plastik qablaşdırmalarla bağlı efirdə Respublika Sanitar-epidemioloji stansiyasının işçiləri ilə müzakirələr də aparılıb. Əlbəttə ki, plastik qablaşdırmalar da ziyanlıdır, tərkibində plastik maddələr olan istənilən əşya da. Siz fikir versəniz, görərsiniz ki, yeni istehsaldan çıxmış plastik qablardan necə spesifik



qoxu gəlir. Plastik qabların istehsalında bir sıra kimyəvi maddələrdən istifadə olunur ki, onlar da insan orqanizminə ziyandır. Amma şüşə qablaşdırmada istər şirələr olsun, istərsə də mineral sular uzun müddət - göstərilən son istifadə tarixinədək tərkibi dəyişməz qalır”.

Qeyd edək ki, mütəxəssislər bunun qarşısının alınması istiqamətində bir neçə təklif irəli sürürlər ki, onlardan biri maarifləndirmə, ikincisi böyük marketlərin bundan imtina etməsidir.

**Nailə Məhərrəmova**

# “Daily Mail” agentliyi Sofiya robotunun Azərbaycan səfərindən yazıb

Dünyanın məşhur “Daily Mail” informasiya agentliyində Sofiya robotunun Azərbaycan səfərinə dair məlumat dərc olunub. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyindən AZƏRTAC-a bildirilib ki, məlumatda Sofiya robotunun dünya turu çərçivəsində Prezident İlham Əliyevlə görüşündən əvvəl Bakı Beynəlxalq Hava Limanında qısa müddət ərzində “ASAN xidmət” tərəfindən ilk dəfə elektron viza ilə təmin edilməsi qeyd olunub.

Vurğulanıb ki, elektron hökumət platforması olan “ASAN xidmət” tərəfindən İmişli şəhərində yaradılan yeni mərkəzin açılışı zamanı Sofiya robotu Prezident İlham Əliyevlə görüşüb. Görüş zamanı Sofiya Prezident İlham Əliyevlə söhbət edib. O, bu görüşdən məmnunluğunu və Azərbaycanın onu valeh etdiyini bildirib.

Prezident İlham Əliyev söhbət zamanı robot Sofiyanın sıx iş rejiminə baxmayaraq, Azərbaycana səfərindən və onunla birlikdə yeni “ASAN xidmət” mərkəzinin açılışında iştirakından məmnun olduğunu bildirib. Bunun innovasiya olduğu, bizim müasir ölkə qurmaq bacarığımızın və niyyətimizin əks etdirdiyi vurğulanıb. Məqaləyə keçid üçün bu linkdən istifadə etmək olar: https://dailym.ai/2EQdc8w




# Rusiyada Ermənistandan gətirilən 900 ədəd gerber gülü məhv edilib

Rusiya Federasiyasının (RF) Baytarlıq və Fitosanitar Nəzarəti üzrə Federal Xidmətinin Omsk şöbəsinin əməkdaşları Ermənistandan gətirilən böyük miqdarda gerber güllərini məhv ediblər.

AZƏRTAC Xidmətin internet saytına istinadla xəbər verir ki, oktyabrın 29-da Omsk vilayətində yük avtomobili ilə Ermənistandan gətirilən 900 ədəd gerber gülündə təhlükəli orqanizm - qərbi Kaliforniya gül tripsi (Frankliniella occidentalis Perg.) aşkar edilib. RF Baytarlıq və Fitosanitar Nəzarəti üzrə Federal Xidmətinin Omsk şöbəsinin keçirdiyi entomoloji ekspertizanın nəticələrinə dair arayış erməni sahibkara təqdim olunub və güllər yandırılaraq məhv edilib.

# "Azərbaycanda sabitliyin əsasını dövlətin din sahəsinə göstərdiyi qayğı təşkil edir"

***- Ceyhun müəllim, təhsilinizi Suriya və Liviyada almısınız. Hazırda həmin ölkələr hərb meydanına çevrilib. Təhsil aldığınız ölkələrin bu duruma düşməsi Sizdə hansı təəssüratlar yaradır?***

- Bildiyiniz kimi, yeddi il xarici ölkələrdə təhsil almışam; bura həm Suriyanın, həm də Liviyanın tədris müəssisələri daxildir. Televiziya ekranından bu ölkələrlə bağlı xoşagəlməz kadrları izlədikcə, əlbəttə, xatirələr yada düşür. İllərlə yaşadığın, gəzdiyin, olduğun yerlərin dağılıb bərbad vəziyyətə düşdüyünü görmək insana çox pis təsir edir. Suriyadan olan tələbə yoldaşlarımızla hərdən danışır, bu barədə fikir mübadiləsi aparırıq. Həqiqətən, üzücü durumdur; insanlar əziyyət çəkir, doğma yurd yerlərindən qaçqın-köçkünə çevrilirlər.

Suriyada yaşayıb, bu ölkənin ictimai-siyasi, sosial durumuna bələd olan şəxs kimi qeyd edim ki, ümumiyyətlə, ərəb dili, İslam elmləri sözügedən bölgədə xeyli inkişaf etmişdir. Suriya xalqı, hökuməti biz tələbələrə çox mehriban münasibət göstərir, isti yanaşırdı. İnşallah, düşünürəm ki, müharibə qurtarar və ölkə yenidən öz axarına qayıdar; haqqında kədərlə söhbət açdığımız vəziyyət yenidən əvvəlki məcrasına düşər.

***- Siz bu vəzifəyə təyin olunana qədər müxtəlif qurumlarda, o cümlədən Prezident Administrasiyasında çalışmısınız. Rektor təyin olunanda hansı hissləri keçirdiniz?***

- Tələbəlik illərindən özümü həmişə təhsildə, müəllim kimi görürdüm. Azərbaycana qayıtdıqdan sonra, bir müddət "İrşad" İslam Araşdırmaları Mərkəzində çalışdım. 2001-ci ildə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yaradıldı və Rafiq müəllim (Rafiq Əliyev nəzərdə tutulur - red.) məni həmin quruma işə dəvət etdi. Əmək fəaliyyətimlə yanaşı, həm də təhsilimi davam etdirirdim - "Xəzər" Universitetində magistratura səviyyəsi üzrə oxuyurdum. Az sonra Azərbaycan Milli Elmlər Akademiyası Əlyazmalar İnstitutunda elmi iş müdafiə etdim. Dövri olaraq ara-sıra mətbuatda elmi məqalələrim çap olunurdu.

2013-cü ildə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsindən ayrıldıqdan sonra, bir müddət Azərbaycan Milli Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda işlədim. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsindən ayrılanda daha çox elmi fəaliyyətlə məşğul olacağımı düşünürdüm. Necə deyərlər, niyyətin haradırsa, məqsədin də oradır. Bu istəklə də Azərbaycan Milli Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda fəaliyyətimi davam etdirdim. Akademiyada çalışdığım müddətdə institutun direktoru Gövhər xanım (akademik Gövhər Baxşəliyeva nəzərdə tutulur - red.) mənə tövsiyə etdi: "Sən uzun müddət dövlət işində çalışmısan və bu səbəbdən, həmin sahədə fəaliyyətini davam etdirməyin daha uğurlu olar. Sənin yenidən dövlət qulluğuna qayıtmağın üçün çalışacağam...".

Günlərin birində Gövhər xanım mənə dedi ki, Kamal (Kamal Abdulla nəzərdə tutulur - red.) müəllimlə danışmışam, o səninlə Bakı Slavyan Universitetində görüşəcək.



*SİA Azərbaycan İlahiyyat İnstitutunun rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədovun müsahibəsini təqdim edir:*

Həmin dövrdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasında Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsi yenicə yaradılmışdı, Kamal müəllim həmin şöbənin müdiri idi. Kamal müəllim, həm də Bakı Slavyan Universitetində laboratoriyaya rəhbərlik edirdi. Şənbə günü vədələşdiyimiz vaxtda Kamal müəllimlə orada görüşüb söhbət etdik. İki gün sonra Prezident Administrasiyasından zəng olundu ki, Kamal müəllim səni çağırır və beləliklə, yenidən dövlət qulluğunda fəaliyyətimi davam etdirdim. Üç ildən artıq müddətdə Kamal müəllimlə bir yerdə fəaliyyət göstərdik. Kamal müəllim həmin dövrdə Azərbaycan Dillər Universitetinə rektor təyin olunduqdan sonra, bu ali təhsil ocağında dərs deməyi mənə təklif etdi.

Müəllimlik çoxdankı arzum idi, ona görə də böyük məmnuniyyətlə təklifi qəbul edib, orada dərs deməyə başladım. İş elə gətirdi ki, tədbirlərin birində Mübariz müəllimlə görüşdüm (Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı nəzərdə tutulur - red.). Bu həmin vaxt idi ki, cənab Prezident İlahiyyat İnstitutunun yaradılması haqqında artıq Sərəncam imzalamışdı. Mübariz müəllim məndən tərcümeyi-halımı istədi. Bir müddət sonra isə mənim həmin təhsil müəssisəsinə rəhbər təyin olunmağım barədə namizədliyimi irəli sürmək niyyətində olduğunu dedi. Söhbət əsnasında bu təklifə necə yanaşdığımı və münasibət bildirməyimi öyrənmək istədi. Müəyyən fikir mübadiləsindən sonra, bir müddət keçmiş mənə məlumat verdi ki, rektorluq üçün sənədlər Prezident Administrasiyasına göndərilib və namizədlər arasında mənin də adım var.

Müəyyən müddət sonra rəhbərlik məni qəbul etdi və cənab Prezidentin Sərəncamı ilə rektor təyin olundum. Bir daha bildirmək istəyirəm ki, həmişə təhsil sahəsində fəaliyyət göstərməyə can atmışam, tələbələrlə ünsiyyətdə olmağa səy göstərmişəm...

İş elə gətirdi ki, cənab Prezident böyük etimad göstərib məni rektor təyin etdi.

***- İlahiyyat İnstitutunun rektoru olaraq, bu gün Azərbaycanda dini vəziyyəti necə qiymətləndirirsiniz?***

- Azərbaycanda bu gün dini durum əvvəlki dövrlərlə müqayisədə tam fərqlidir. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi davamlı olaraq müxtəlif maarifləndirmə tədbirləri keçirir. Bir çox müsəlman ölkəsində çox ciddi proseslərin getdiyinin şahidiyik. Hazırda müsəlman ölkələrində sabitliyi pozmaq üçün zaman-zaman din amilindən məharətlə istifadə edilir. Müxtəlif dini qruplar arasında münaqişə yaradılır. Bu nöqteyi-nəzərdən Azərbaycanda dini təhlükəsizliyin təmin edilməsi üçün xeyli iş görülmüşdür; məsələn: Mənəvi Dəyərlərin Təbliği Fondu yaradıldı ki, bu qurum Azərbaycanda icmalara, din xadimlərinə dəstək verir. Nəhayət, Azərbaycan İlahiyyat İnstitutunun yaradılması ölkəmizin bu sahəyə çox böyük töhfəsi olacaq.

1993-cü illəri araşdırdıqda, xüsusilə 90-cı illərin əvvəllərində Azərbaycanda çox ciddi problemlər var idi. Radikal islam, qeyri-islam təriqətləri çalışırdılar ki, Azərbaycanda əhalini öz tərəflərinə çəksinlər. Ulu Öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra, Azərbaycanda din sahəsində xeyli iş görüldü. 2001-ci ildə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yaradıldı. Sonrakı dövrlərdən bu günədək cənab Prezident İlham Əliyev Ulu Öndərin bu siyasətini uğurla davam etdirir. Bu gün Azərbaycanda sabitliyin əsasını dövlətin din sahəsində göstərdiyi qayğı təşkil edir.

Bildiyiniz kimi, dövlət tərəfindən məscidlər, kilsələr, sinaqoqlar təmir edilir. Azərbaycan yeganə və az sayda müsəlman ölkələrindəndir ki, dövlət bilavasitə dinə qayğı göstərir, dini icmaları və din xadimlərini maliyyələşdirir. Təbii ki, bu səpkidə işlər ölkədə sabitliyin qorunmasına öz ciddi təsirini göstərir.

***- Mənəvi Dəyərlərin Təbliği Fondu bəzi dini icmalara avtomobil verib. Bu layihə, nədənsə, bəzi sosial şəbəkə istifadəçiləri tərəfindən tənqid olundu. Sizin bu məsələyə münasibətiniz maraqlı olardı...***

- Din strateji sahədir; nəinki avtomobil verəndə, xatırlayırsınızsa, din xadimlərinə dövlət tərəfindən maliyyə yardımı göstəriləndə də sosial şəbəkələrdə bu məsələ xeyli müzakirə olundu. Burada əsas məsələ odur ki, din son dərəcə həssas strateji sahədir və eyni zamanda, biz burada öz dini təhlükəsizliyimizi təmin etməyə çalışmalıyıq. Dövlət bütün sahələrə diqqət göstərir, o cümlədən din xadimlərinə qayğı göstərməsi, onlara dəstək durması olduqca əhəmiyyətlidir. Prezident Administrasiyasında çalışdığım zamanlarda Polşadan qonaqlar gəlmişdilər. Biz onlarla ünsiyyətdə olduq. Polşada dövlət bütün dini icmalara, din xadimlərinə dövlət büdcəsindən maaş verir. Türkiyədə Dəyanət İşləri Başkanlığı din xadimlərinə əməkhaqqı verir. Bu baxımdan, dövlətin din adamlarına qayğı göstərməsi vacibdir.

Dövlət bununla həm də öz təhlükəsizliyini qoruyur. Xarici qüvvələr bəzən hansısa ölkədə sabitliyi pozmaq üçün din amilindən məharətlə istifadə etməyə çalışırlar. Müxtəlif ölkələrdə din xadimlərinin maliyyələşdirilməsi və onlara xarici dəstəyin verilməsi zaman-zaman müşahidə olunub. Dövlət bu dəstəyi bilavasitə özü verməsə, həmin ehtiyaclar başqa yerlərdən təmin oluna bilər.

Azərbaycan cəmiyyətində bəzi insanlar dinə həssas yanaşmırlar. Bu da haqlı olaraq təəssüf doğurur. Sözügedən məsələ strateji əhəmiyyət daşıdığından, son dərəcə ehtiyatlı olmalıyıq. Dünya təcrübəsi sübut edir ki, hər hansı bir qığılcımdan böyük problemlər yarana bilir; məsələn: dinlə bağlı hər hansı karikatura, hər hansı söz və s. Bir məsələni də xüsusi vurğulayım ki, dini qadağan etmək mümkün deyil. Sovet hökuməti uzun müddət bunu etməyə çalışdı və günümüzdə belə, onun fəsadlarını hələ də yaşayırıq. Əsas istiqamət maarifləndirmə, təbliğat işi yönündə olmalıdır.

***- İnstitutda neçə nəfər təhsil alır?***

- Hazırda institutda 103 tələbə təhsil alır. Bu il təhsil müəssisəsinə 65 tələbə qəbul olunub. Eyni zamanda, Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsindən müəyyən sayda tələbələr gəlib. İnstitutda iki ixtisas var - Dinşünaslıq və İslamşünaslıq. Dinşünaslıq ixtisasına 25, İslamşünaslığa isə 35 yer ayrılıb. Builki qəbulda yerlərin tam dolması da məmnunluq yaratdı.

***- Tələbələrlə münasibətinizi necə qurursunuz? Yəni şablon rektor-tələbə münasibət, yaxud bir qədər yaxın?***

- Bir məsələni xüsusi vurğulamaq istərdim. İnstitutda sistemi elə qurmuşuq ki, bütün rəhbər heyət dərs deyir; məsələn: bilavasitə tələbələrlə ünsiyyətdə olur, multikulturalizm fənnini tədris edirəm. Eyni zamanda, iki prorektorumuz dərs deyir. Tələbələrə öz övladlarımız kimi yanaşırıq. Qapım onların üzünə həmişə açıqdır. Gün ərzində bir neçə dəfə auditoriyaları gəzir, tələbələrlə ünsiyyətdə oluram. Bizim elə tələbələrimiz var ki, onlar qayğıya daha çox ehtiyac duyur. Biz onları daim nəzarətdə saxlamağa çalışırıq. İnstitutda elə mühit formalaşıb ki, tələbələr arzu etdikləri vaxt rəhbərliyə, rektorun özünə bilavasitə müraciət edə bilsinlər. İdarəçiliyi düzgün qurmaq, təhsilə töhfə vermək üçün tələbələrlə daim ünsiyyətdə olmağı, onların dərdlərini dinləyib kömək etməyi başlıca meyar kimi formalaşdırmışıq.

***- İlahiyyat İnstitutuna keçid balını Dövlət İmtahan Mərkəzi 150 bala endirdi. Bunun abituriyentlərin və valideynlərin istəyi ilə həyata keçirildiyi bildirildi. Sizcə, bu keçid balı normal mütəxəssislərin hazırlanması üçün aşağı deyil?***

- Bizə bu sualı tez-tez verirlər. Bir məsələni unutmayaq ki, Azərbaycan İlahiyyat İnstitutu yeni yaradılıb. İnstitutun tam formalaşması, əhali tərəfindən qəbul olunması üçün zamana ehtiyacımız var. Təsəvvür edin, Sərəncam fevral ayında imzalandı, mən 31 mayda rektor təyin olunum. Qısa zaman kəsiyində qarşımızda bir çox işlərin görülməsi dururdu, hətta ehtimal var idi ki, kifayət qədər tələbə yığa bilməyək. İlk gündən bütün gücümüzü səfərbər edib tələbə toplamağa çalışdıq. Doğrudur, 150 aşağı baldır. Bizim tələbələrin böyük əksəriyyəti 250-300, hətta 350 bal toplayıb. İnstitutumuza bu il qəbul olunan tələbələrin orta balı 177 civarındadır. Sizə mühüm bir amili də demək istəyirəm ki, tələbələrin dərsə münasibəti, təfəkkürü, düşüncəsi bizi qane edir; əsas odur, onların marağı, həvəsi var. Bu gün biz tələbələrlə işimizi maksimum səmərəli qurmağa çalışı-

rıq.

Daha vacib bir məsələni nəzərə çatdırım; İslamşünaslıq fakültəsi üzrə bizdə 35 yer nəzərdə tutulub, 35 yerə 100 abituriyent müraciət etmişdi. Biz həmin 35 nəfəri seçib instituta daxil olması üçün aidiyyəti prosedurları həyata keçirdik.

Bu gün birinci kurs tələbələri bizdə nikbin fikir yaradır. İşimizi düzgün qursaq, bu tələbələrin Azərbaycan dinşünaslığına, islamşünaslığa lazımı töhfə verəcəyini düşünürəm.

***- İnstitutda təhsil alan tələbələrin daha yüksək biliyə yiyələnmələri üçün hansı işlər görülür?***

- Biz təhsil prosesini iki hissəyə bölmüşük ki, birincisi tədris prosesidir. Bundan başqa, institutda əlavə kurslar yaratmışıq. Bu kurslar tamamilə ödənişsizdir. Kurslarda ərəb və ingilis dilləri öyrədilir. Yaxınlarda rus dili kursunun açılacağını planlaşdırırıq.

Azərbaycan İlahiyyat İnstitutunda davamlı olaraq müxtəlif seminarlar, görüşlər, tədbirlər keçirilir. Seminarlar müxtəlif elmi mövzularda olur. Görüşlərdə Azərbaycan yazıçıları, ziyalılar tələbələrlə səmimi ünsiyyət qurur, qarşılıqlı fikir mübadiləsi aparılır.

Önəmli olan cəhətlərdən biri də budur ki, Azərbaycanda fəaliyyət göstərən səfirlərlə tələbələri görüşdürürük. Tələbələrin hazırlanması üçün vacib olan bütün işləri həyata keçiririk. Eyni zamanda, tələbələrin milli-mənəvi dəyərlərə sadiq, sağlam ruhda böyümələri üçün lazımlı tədbirləri görürük. Qarşıdakı ayda tələbələri Cocuq Mərcanlı kəndinə aparmağı planlaşdırırıq. Bundan başqa, tələbələrimizi Azərbaycanın dini abidələri çox olan rayonlara, Bakıda fəaliyyət göstərən muzeylərə, sərgilərə aparmağı da nəzərdə tutmuşuq.

Tədbirlər planımıza müsabiqələrin, bilik yarışlarının keçirilməsi də daxildir. Hesab edirik ki, tədris prosesi ilə bərabər, tələbələrin asudə vaxtlarının səmərəli təşkili üçün institut lazım olan bütün məsələləri reallaşdırmalıdır.

İnstitutun elmi jurnalını çap etmək niyyətindəyik. Bu jurnalın ildə iki dəfə nəşr olunması nəzərdə tutulur.

***- Tələbələrin yataqxana problemini necə həll etməyi planlaşdırırsınız?***

- Hazırda institutda təhsil ödənişsizdir və tələbələrə təqaüd verilir. Bundan əlavə, tələbələrə dərs vəsaiti pulsuz paylanılıb. Onlara yeməyin pulsuz verilməsinə çalışırıq; o cümlədən gələcəkdə geyimin də ödənişsiz paylanmasını planlaşdırırıq.

Tələbələrin yataqxana ilə təmin olunması gündəmdə dayanan məsələlərdən biridir. Hazırda bu istiqamətdə işlər aparılır. Biz, ilk növbədə, maddi vəziyyəti, sosial təminatı qənaətbəxş olmayan tələbələrin yataqxana ilə təmin edilməsi barədə intensiv iş görürük. Hesab edirəm ki, yaxın müddətdə bu işlər öz həllini tapacaq.

İnstitut müvəqqəti olaraq bu binada yerləşir. Gələn ildən başqa binada fəaliyyətimizi davam etdirməyi planlaşdırırıq. İnstitut üçün kampusun yaradılması və tələbələrin bütün ehtiyaclarının tam qarşılanması nəzərdə tutulur.

***- Tələbələr üçün vahid geyim forması olacaq, yoxsa?..***

- Müsəlman və digər ölkələrdə dini təhsilin təcrübəsi var. Adətən, dini təhsil müəssisələrinin bir çoxunda bu sahəyə kompleks yanaşma var - tələbə həm yataqxana, həm də geyimlə təmin olunur. Xaricdə təhsil almaq istəyən tələbələrin bütün ehtiyacı həmin dövlət tərəfindən ödənilir. Əgər həmin ehtiyaclar ödənilməsə, arzuolunan nəticə əldə edilə bilməz. Vahid geyim dedikdə, digər müsəlman ölkələrində olduğu kimi, tələbələrin xüsusi geyim forması nəzərdə tutulur.

Bildiyiniz kimi, bir çox ölkədə din xadimlərinin xüsusi geyimi var. Bu səbəbdən, tələbələrdə bu vərdişin yaranması üçün belə tədbirin həyata keçirilməsi planlaşdırılır.

***- Sizin yazıçınız kimdir?***

- Ümumiyyətlə, axır vaxtlar bədii ədəbiyyat oxumağa vaxtım az olur. Kamal müəllimin (Kamal Abdulla nəzərdə tutulur - red.) "Sehrbazlar dərəsi" və "Yarımçıq əlyazma" əsərlərini oxumuşam. İmkan yarandıqca, onunla əsərləri barədə müzakirələr də aparmışıq. Vaxt yarandıqda, Cəlil Məmmədquluzadənin və başqa klassiklərimizin əsərlərini təkrar-təkrar oxuyuram. Mirzə Ələkbər Sabirin şeirlərində tənqid elədiyi məsələlərlə, təəssüf ki, müasir dövrdə də rastlaşırıq. Azərbaycan aydınları dini xurafata qarşı yorulmadan mübarizə aparıblar. Cəlil Məmmədquluzadə, Seyid Əzim Şirvani yaradıcılıqlarında bu məsələlərə kifayət qədər toxunublar. Azərbaycanda o dövrün dini mənzərəsi haqqında təsəvvür yaratmaq üçün onları oxumaq maraqlıdır.

Bu yaxınlarda Azərbaycan yazıçısı Çingiz Abdullayevlə institutda görüş keçirdik. İmkan düşdükcə, onun əsərlərini oxumağa çalışıram. Rus yazıçılarını, məsələn, Lev Tolstoyu oxumaq xüsusi zövq verir. Xarici yazarlardan Erix Maria Remarkın və Herman Hessenin əsərlərini çox bəyənirəm. Birincinin "Zəfər tağı", ikincinin "Yalquzaq" əsərlərini böyük maraqla oxudum. Sizə bir sirr də açım, bəzən yorulanda bədii ədəbiyyat oxumaqla dincəlirəm...

***- Hazırda Azərbaycan televizyalarında müxtəlif seriallar nümayiş etdirilir. Təəssüfedicidir ki, yerli kanallarda dini maarifləndirmə, dini radikalizmə qarşı seriallar yoxdur. Bununla bağlı rəhbərlik etdiyiniz institut hər hansı iş aparmağı planlaşdırırmı?***

- Bu gün dünyada dini radikalizmə qarşı bir neçə metoddan istifadə olunur ki, onlardan biri inzibati üsuldur. Dövlət qurumları lazım bildiyi zaman inzibati tədbirlər həyata keçirir. İnzibati tədbirlərlə yanaşı, ən səmərəli üsullardan biri maarifləndirmədir. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi bu istiqamətdə bir neçə film çəkib ki, bunlardan "Fitnə", "Şəhadət" və digərlərini nümunə göstərmək olar. Bu filmlər gənclərin tərbiyəsinə öz töhfəsini verir. Həmin filmlərin bəzilərinin təqdimat mərasimində iştirak etmişəm. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi bu istiqamətdə işləyir. Biz ali təhsil ocağı olaraq gələcəkdə, təbii ki, müəyyən sənədli filmlərin çəkilişini, kitabların hazırlanmasını, o cümlədən müxtəlif mövzularda beynəlxalq konfrans keçirməyi planlaşdırırıq.

# "Strategiya əsasında qadınlar layiqli iş yerləri ilə təmin olunacaqlar"

***"Prezident İlham Əliyevin fəaliyyətində əhalinin məşğulluğunun təmin olunması, yoxsulluğun azaldılması prioritet istiqamət tutur, sosial müdafiənin ən vacib əlamətlərindən biridir". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin əmək və sosial siyasət komitəsinin sədr müavini Musa Quliyev Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilən 2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyasını şərh edərkən deyib. O bildirib ki, dünyada məşğulluq səviyyəsi yüksək təmin olunan ölkələrdə yoxsulluq da aşağı olur.***



## "Strategiya vətəndaşların işlə təmin olunmasını layiqli şəkildə həyata keçirə biləcək proqramdır"

Deputat söyləyib ki, Prezident İlham Əliyev 2003-cü ildə dövlət başçısı seçilərkən qarşıya məqsəd qoyaraq 5 il ərzində 600 min yeni iş yerlərinin açılacağını bəyan etdi: "Bu illər ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə o qədər geniş işlər görülüb ki, bunun nəticəsində 2 milyondan çox yeni iş yerləri açılıb. 2003- cü ildən bu günə qədər ötən 15 il ərzində Azərbaycanda işsizlik 50 faizdən 5 faizə qədər enib. Bunun qarşılığında da yoxsulluq 49 faizdən 5.6 faizə qədər enib".

M. Quliyev qeyd edib ki, 2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının qəbul olunması həmin siyasətin davamıdır: "Strategiya 2030-cu ilə qədər ölkəmizdə bütün regionları əhatə etməklə, yaş qrupundan, ixtisas, peşə məsuliyyətindən asılı olmayaraq hər bir Azərbaycan vətəndaşının işlə təmin olunmasını layiqli şəkildə həyata keçirə biləcək proqramdır".

"Ölkənin hər bir regionunda iş yerlərinin açılması çox vacibdir"

Azərbaycanda demoqrafik proseslərin müsbət istiqamətdə inkişaf etdiyini deyən komitənin sədr müavini deyib ki, ölkə əhalisinin sayı ildə 100 min nəfər artır: " Bu o deməkdir ki, əmək bazarına hər il 100 min yeni işçi qüvvəsi atılır. Eyni zamanda il ərzində 20-30 min iş yerlərinin bağlandığını, birləşdiyini, xarakterini dəyişdiyini nəzərə alsaq, deyə bilərik ki, hər il ölkəmizdə 120-130 min yeni iş yerlərinin yaradılması zərurəti ortaya çıxır. Məhz bu zərurəti önləməkdən ötrü, ölkənin hər bir regionunda iş yerlərinin açılması çox vacibdir. 2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası həm yeni əmək bazarlarına atılan insanların layiqli işlə təmin olunması, həm də indiyədək işləməyən, iş yerini, peşəsini dəyişən insanlar da öz məşğuliyyətlərini və layiqli gəlirlərini təmin etməyi özündə ehtiva edir".

## "Strategiyanın əsas



## istiqamətlərindən biri qadın və qızların layiqli iş yerləri ilə təmin olunmasıdır"

M. Quliyev vurğulayıb ki, son zamanlar Prezident İlham Əliyevin rəhbərliyi ilə qeyri-neft sektorunun inkişafına çox diqqət yetirilir və bunun nəticəsində ölkəmiz çox böyük uğurlar əldə edib: "Xüsusilə də aqrar və turizm sektorunun inkişafı kənd yerlərində yaşayan insanlarımızın, ən əsası isə qadınlarımızın işə cəlb olunmasını çox yüksək səviyyədə həyata keçirməyə imkan verir. Bu strategiyanın da əsas istiqamətlərindən biri qadın və qızların layiqli iş yerləri ilə təmin olunmasıdır. Bu, həm gender probleminin həllinə yönəldilən, həm də hər bir ailə üzvünün evə gəlir gətirməsinə imkan verə biləcək layihədir. Planlı şəkildə, müxtəlif proqramlar qəbul olunmaqla, müasir innovativ texnologiyalar tətbiq etməklə bu proqram həyata keçiriləcək və çox böyük uğurlar əldə ediləcək".

"Proqramın həyata keçirilməsi üçün İş Planı hazırlanacaq"

Deputat əlavə edib ki, proqramın həyata keçirilməsi üçün icraçı orqan kimi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi müəyyən edilib: "Bu, çox doğrudur. Nazirlik də strategiyanın həyata keçirilməsi ilə əlaqədar İş Planını hazırlayacaq və işlər addım-addım həyata keçiriləcək. Amma bizim digər nazirliklərimiz, xüsusilə də İqtisadiyyat Nazirliyi burada fəal rol oynayacaq. Eyni zamanda yerli icra hakimiyyəti orqanları, bələdiyyələr bu sahəyə öz töhfələrini verəcək. Kənd Təsərrüfatı eləcə də Turizm Agentliyi bu sahələrə cəlb olunacaqlar".

***Nailə Məhərrəmova***

# ABŞ və Rusiya Ermənistanı məngənəyə salıb

***Ermənistanda keçiriləcək parlament seçkiləriərəfəsi vəziyyət daha gərgin hal alıb. Belə ki, Ermənistan parlamentində növbədənkənar parlament seçkilərinə hazırlıq məqsədilə yaradılmış Seçki Məcəlləsini 72 saat ərzində müzakirə etmək barədə təklif qəbul edilməyib. Ədliyyə naziri Artak Zeynalyanın verdiyi təklifə əsasən, qanuna dəyişiklik iki oxunuşda 72 saat ərzində qəbul edilməli idi. Dəyişikliklər proporsional seçki sisteminə keçid, partiyalar üçün seçki baryerinin 5%-dən 4%-ə, bloklar üçün isə 7%-dən 6%-ə endirilməsini nəzərdə tutur. Eyni zamanda, koalisiya qurmaq üçün müddət 6 gündən 10 günə qədər artırılır. “SƏS” qəzeti Ermənistan KİV-ə istinadən xəbər verir ki, ölkədə parlament seçkilərinin dekabrın 9-10-u tarixlərində keçirilməsi təklif olunur.***



Bütün bunlarla yanaşı, ABŞ və Rusiyanın Ermənistana münasibətinin soyuq olmasıdır. Bu isə, belə bir anlamı verir ki, Paşinyan hökuməti hər an sürprizlərlə üzləşə bilər. Daha dəqiq desək, işğalçı ölkə “çəkic” və “zindan” arasında qalıb.

### “Paşinyanın hansı xarici siyasət kursunu tərcih edəcəyi bəlli deyil”

Bu yerdə bir məqamı da vurğulamaq lazımdır ki, bu gün işğalçı ölkədə daxili çəkişmələrlə yanaşı, ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Boltonun Rusiyaya və regiona səfəri bu gün də siyasi çevrələrdə müzakirə mövzusu olaraq qalmaqdadır. Aydın olur ki, səfərdə daha bir məqsəd işğalçı Ermənistanla onun 1 nömrəli müttəfiqi Rusiya arasında münasibətlərdə etimadsızlıq və soyuqluq yaratmaq olub. Belə görünür, bu məqsədə, müəyyən mənada, nail də olunub.

Təsadüfi deyil ki, Bolton İrəvanda olarkən Ermənistana, onun hazırkı rəhbərinə, məhz seçkisonrasına hesablanmış aydın mesajlar verdi. O sırada o, Rusiya asılılığından və Rusiya silahlarından qurtulmaq, qonşu Türkiyə və Azərbaycanla münasibətləri normallaşdırmaq üçün Qarabağ problemini çözməyi təklif elədi, seçkilərdən sonra bu yöndə Paşinyanın real addım atacağına ümid ifadə elədi.

Rusiya bu mesajlara sərt reaksiya verərək, ABŞ-ı “Ermənistanın daxili işlərinə müdaxilədə” suçladı. Eyni zamanda, bu mesajın digər bir anlamı da ondan ibarətdir ki, İrəvan Kremlin orbitindən uzaqlaşmayana qədər ciddi Amerika yardımlarına ümid edə bilməz. Həmçinin, bir məqamı da vurğulayaq ki, Boltonun səfəri ərəfəsində N.Paşinyan ABŞ-dan narazılıq eləmişdi. Və artıq: ABŞ da Paşinyandan narazı olduğunu göstərməkdədir. Belə ki, erməni mətbuatının yazdığına görə, Con Bolton Ermənistandan olan ekspertlər və politoloqlarla görüşü zamanı Ermənistanın Rusiyanın bayrağı altında Suriyaya humanitar missiya göndərmək istəməsindən də narazı olduğunu dilə gətirib: “Bolton görüş zamanı Suriyaya göndəriləcək missiyanın humanitar yox, hərbi xarakter daşıyacağı halda, hər şeyin pis olacağı ilə bağlı eyham vurub. O, həmçinin, Rusiyada görüşləri zamanı bu təşəbbüsün Ermənistandan gəldiyinə dair məlumatlar əldə etdiyini bildirib. Bizim mənbələrimiz isə, hazırda humanitar missiya məsələsinin Müdafiə Nazirliyində ciddi müzakirə olunduğunu qeyd ediblər”.

### Etiraf olunan həqiqət erməniləri qorxuya salıb

Nəhayət, işğalçı ölkə etiraf olunan həqiqətlərdən qorxuya düşmək hissiyyatını yaşaya bilib. Belə ki, ABŞ və Avropanın böyük dövlətlərinin, rəsmi olaraq, ifadə etdikləri bir çox fikirlər işğalçı ölkəni narahat etməyə başlayıb. Amerikanın Ermənistandakı səfiri Riçard Mills, İrəvanı tərk etməzdən öncə, verdiyi müsahibədə ermənilləri münaqişənin mahiyyətini anlamamaqda ittiham edib. Eyni zamanda, eyni vaxtda digər ABŞ rəsmisi Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən fikirlər bildirib. Bunlarla yanaşı, Fransa Azərbaycanla hərbi əməkdaşlıq edəcək. Ermənistanın bütün iradlarına baxmayaraq, Fransa rəhbərliyi qərarından dönmür. Amerikalı diplomat bildirib ki, mən buraya ilk dəfə gələndə, təəccübləndim: “Gördüm ki, rast gəldiyim ermənilərin əksəriyyəti danışıqlar prosesi çərçivəsində işğal olunmuş ərazilərin qaytarılmasının qəti əleyhinədirlər”.

Nikol Paşinyan isə onun dediklərini başqa səmtə yönəldərək söyləyib ki: “gedən səfirin yadda qalmayacaq sözləridir”.

Lakin Paşinyan Riçard Millsın sözünü başqa səmtə yönəltsə də, bilməlidir ki, bu, sadəcə, erməni liderin problemdən qaçması əlamətidir. Çünki belə bir vəziyyətin yaranacağını Azərbaycan tərəfi dəfələrlə Ermənistan rəhbərliyinə xatırladırdı. Onlara dəfələrlə deyilir ki, işğal etdiyiniz Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlisiniz. Münaqişənin həllinin başqa variantı yoxdur! Və rəsmi İrəvanın bununla bağlı hər hansı şərt irəli sürməsi qəbuledilməzdir, çünki o, işğalçıdır!

Bir sıra erməni ekspertləri N.Paşinyanın iki supergüc arasında manevr etməyə çalışdığını yazaraq, bildirirlər ki, N.Paşinyan hər iki istiqamətdə “qırmızı xətti” keçməyə məhkumdur: “Reallıqda “inqilab” rəhbəri bu cəsarəti edə bil-



məz. Çünki Ermənistanın “qırmızı xətləri”ni özü deyil, Moskva və Vaşinqton müəyyənləşdirir. N.Paşinyanın isə onları keçməyə, sadəcə, nə ixtiyarı var, nə də ki, imkanları. Əsas odur ki, ermənilər də etiraf edirlər: Cənubi Qafqaz uğrunda böyük güclərin savaşı genişlənib. Bu mərhələdə Ermənistan çox pis vəziyyətə düşür və ona görə də, N.Paşinyan ora-bura vurnuxur”.

Beləliklə, deyilənlərdən belə nəticə çıxarmaq olur ki, Ermənistan ABŞ və Rusiyanın təzyiqə arasında qalaraq, hələ də çıxış yolu tapa bilmir.

**A.SƏMƏDOVA**

---



# Ermənistana sanksiyalar tətbiq olunmalı və təzyiqlər göstərilməlidir

*“ATƏT-in Minsk Qrupunun həmsədrlərinin regiona növbəti səfərindən real nəticə əldə olunacağını gözləmirəm”*



Növbəti dəfə regiona səfər edən ATƏT-in Minsk Qrupunun həmsədrləri Ermənistanda hakimiyyət nümayəndələri ilə Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli ilə bağlı görüşlər keçiriblər. Həmsədrlər Ermənistandan sonra Azərbaycana səfərə gəlirlər. Sual yaranır, həmsədrlərin ABŞ rəsmisi Con Boltonun səfərindən sonra reallaşan səfərindən Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı hər hansı bir gözləntilər ola bilərmi? Söhbət etdiyimiz müsahiblərimiz həmsədrlərinin regiona növbəti səfərlərinin işğalçı ölkənin münaqişəsin həllində tutduğu qeyri-konstruktiv mövqe səbəbindən, nəticəsiz qalacağını bildirdilər.

### Politoloq Elxan Şahinoğlu: “Azərbaycanın mövqeyi həmsədrlərə çoxdan bəllidir”

- ATƏT-in Minsk Qrupunun həmsədrlərinin regiona növbəti səfərindən real nəticə əldə olunacağını gözləmirəm. Çünki hazırda Ermənistanda seçkilərə hazırlıq prosesi gedir. Yeni seçkilərin nəticələrini bilmədən, hansı hakimiyyətlə danışıqların aparılmasının özü sual yaradır. Bu baxımdan, səfərin elə bir nəticə verəcəyini düşünmürəm. Çünki dediyim kimi, Ermənistanın siyasi dairələrinin və Paşinyanın başı seçkilərə qarışıb. Seçkilər olmalı və hökumət formalaşmalıdır. Seçkilərdən, ən azından, 2-3 ay sonra Dağlıq Qarabağla bağlı hər hansı bir addım gözləyə bilərik. Azərbaycan üçün həmsədrlərin bu cür səfərlərinin elə bir əhəmiyyəti yoxdur. Çünki Azərbaycanın mövqeyi həmsədrlərə çoxdan bəllidir. Burada əsas addım atmalı olan ölkə Ermənistandır ki, işğal altında olan Qarabağətrafı rayonları, birinci mərhələdə, boşaltmalıdır. Əgər bu olmasa, ondan bu səfərlərin, danışıqların heç bir əhəmiyyəti olmayacaq. ATƏT-in Minsk Qrupunun həmsədrlərinin fəaliyyətini mənfi qiymətləndirirəm. Çünki münaqişənin həlli ilə bağlı heç bir irəliləyiş yoxdur. Demək olar ki, onların bu səfərləri ancaq turist səfərlərdən ibarətdir. Münaqişənin mərhələli həll planını guya özləri hazırlayıblar. Amma Ermənistana qəbul etdirə bilmirlər. Təəssüflər olsun ki, işğalçı ilə işğala məruz qalan ölkə arasında yenə də bərabərlik işarəsi qoyurlar. Bu da, ən böyük problemdir.

### Politoloq Qabil Hüseynli: “Bu işi üç nəfərə tapşırıblar və bu üç nəfər də turist kimi gəlib-gedirlər”

- Həmsədrlərin regiona budəfəki səfərlərindən ciddi gözlənti gözləmirəm. Çünki Ermənistanda Paşinyanın başı seçkilərə qarışıb. Yeni Paşinyan danışıqlar prosesi haqqında düşünmür və vəzifəsindən də formal olaraq istefa verib. Ona görə də, ATƏT-in Minsk Qrupunun həmsədrləri kiminlə görüşəcək, bunu söyləməyə də çətinlik çəkirəm. Ümumiyyətlə, ATƏT-in Minsk Qrupunun həmsədrlərinin Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı lazımi səviyyədə işləmir. Onlar da çox zaman bəhanə gətirirlər ki, təşəbbüs tərəflərdən gəlməlidir. Yəni ATƏT-in Minsk Qrupu münaqişənin həllində ikili yanaşma nümayiş etdirir. Əslində, Minsk Qrupuna daxil olan dövlətlər fəal olmalı və bu prosesi sürətləndirməli və günahkar tərəfə müəyyən sanksiyalar tətbiq etməli və təzyiqlər göstərməlidirlər. Bu işi üç nəfərə tapşırıblar və bu üç nəfər də turist kimi gəlib-gedirlər. Belə olan halda da, onların dedikləri sözləri də heç kəs eşitmək istəmir.

**GÜLYANƏ**

### “JOXOVURD”: Ermənilər pomidor tomatına həsrət qalacaqlar

Ermənistanın “Joxovurd” qəzeti ölkənin statistika idarəsinə istinadən yazır ki, tomat pastasının istehsalatı son 8 ayda 7,4 faiz artsa da, istehsalçılar əsas xammalı xarici ölkələrdən idxal ediblər.

“Dövlət komitəsindən verilən məlumata görə, 2018-ci ilin 1 yanvar tarixindən 22 oktyabr tarixinədək ölkəyə 311 min 712 ton pomidor idxal olunub”, yazan erməni qəzeti qeyd edir: “Yeni tomat pastası istehsalçıları kəndlilərdən pomidor almaları yerinə, bu məhsulu idxal ediblər. Bunun isə öz səbəbləri var: bu il pomidorların qiyməti kifayət qədər baha olub. Bununla yanaşı, iqlim şəraiti də bu məhsulun yetişdirilməsi üçün əlverişli olmayıb. Nəticədə bazarda pomidor pastasının defisit yaşayacağını istisna etmək olmaz”.

# Sənayenin inkişafında müsbət nəticələr əldə olunub



***2018-ci ilin yanvar-sentyabr aylarında sənayedə istehsal olunmuş malların və göstərilmiş xidmətlərin həcmi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 0,9 faiz artaraq, 31,2 milyard manat təşkil etmişdir. Sənaye məhsulunun 82,5 faizi mədənçıxarma, 15,5 faizi emal, 1,4 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,6 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur.***

Sənayedə qeyri-dövlət sektorunun payı 84,8 faiz olmuşdur. İstehsalın ümumi həcmində sənaye məhsulunun payı 90,1 faiz, xidmətlərin göstərilməsi isə 9,9 faiz təşkil etmişdir". Bunu "Səs" qəzetinə açıqlamasında Bakı Şəhər Stastistika İdarəsindən bildirilib. İdarədən verilən məlumatda qeyd olunur ki, 2018-ci ilin yanvar-sentyabr aylarında Bakı şəhərində Yüksəkgərginlikli Avadanlıqlar Zavodu, 110/35/10 kilovoltluq "Yasamal-1" və "Qobu", 35/10-6 kilovoltluq 120 saylı elektrik yarımstansiyaları, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksi, Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin yeni binası, Bakı Şəhər Stastistika İdarəsinin inzibati binası, "Bona Dea" Beynəlxalq Hospitalı, "Dinamo" oteli, Respublika Narkoloji Mərkəzi, Abşeron Logistika Mərkəzi, Bakı Kitab Mərkəzi, Bakı Olimpiya Stadionundan Heydər Əliyev prospektinə keçid və müxtəlif səviyyəli yol qovşağı istifadəyə verilmişdir".

"2018-ci ilin yanvar-sentyabr aylarında məhsul bazarında, ictimai iaşədə, ödənişli xidmətlərdə, əmək haqlarının ödənilməsində müsbət nəticələr əldə olunub" deyə qeyd olunan məlumatda, o da bildirilir ki, 2018-ci ilin yanvar-avqust aylarında əvvəlki ilin müvafiq dövrünə nisbətən işçilərin orta aylıq nominal əmək haqqının səviyyəsi 0,7 faiz artaraq, 787,3 manat olmuşdur: "Ən yüksək orta aylıq əmək haqqı sənaye, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, tikinti fəaliyyəti göstərən müəssisə və təşkilatlarda çalışan işçilərdə, ən aşağı əmək haqqı isə səhiyyə və sosial xidmətlər, kənd təsərrüfatı, daşınmaz əmlakla əlaqədar əməliyyatlar, təhsil, istirahət, əyləncə və incəsənət sahələrində fəaliyyət göstərən müəssisə və təşkilatlarda çalışan işçilərdə olmuşdur".

Birjaların fəaliyyəti haqqında məlumat bildirilir ki, 2012-ci ilin 9 ayında Bakıda fəaliyyət göstərmiş birjalar tərəfindən keçirilmiş 489 hərracda 8444220,3 min manatlıq valyuta ehtiyatları və qiymətli kağızlar realizə olunmuşdur: "Bakı Banklararası və Bakı Fond Valyuta Birjaları fəaliyyət göstərdiyi dövrdə keçirilən hərracların sayına və dövriyyənin ümumi həcminə görə xüsusi yer tutur. Bakı Banklararası Valyuta Birjasında 541559 min manatlıq valyuta ehtiyatlarının satışı həyata keçirilmişdir. Bakı Fond birjasında 7902532 min manatlıq qiymətli kağızlar satılmışdır".

***Qismət İsmayılov***

## Azərbaycanda son illər işsizlik və yoxsulluğun səviyyəsi azalıb



Prezident İlham Əliyevin oktyabrın 30-da imzaladığı "2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası" Sərəncamında Məşğulluq Strategiyasının icrası dövründə işsizlik və yoxsulluq səviyyəsinin azaldığı, əhalinin gəlirlərinin, o cümlədən əməkhaqqının yüksəldiyi göstərilir. SİA xəbər verir ki, strategiyada işsizlik səviyyəsinin 7,3 faizdən 5 faizədək, yoxsulluğun 29,3 faizdən 4,9 faizədək azaldığı, əhalinin gəlirlərinin 5,2 dəfə, minimum əməkhaqqının 3,5 dəfə, orta aylıq nominal əməkhaqqının 3,8 dəfə artdığı qeyd edilib.

Həmin dövrdə işsizlərin, işə düzəlməkdə çətinlik çəkən vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi, əmək bazarının təkmilləşdirilməsi, əmək ehtiyatlarının keyfiyyətcə yaxşılaşması və rəqabətqabiliyyətliliyinin artması, iqtisadi fəallığın yüksəlməsi üçün əlverişli şərait yaradılması sahəsində müvafiq tədbirlər həyata keçirilib.

## 9 ayda "Made in Azerbaijan" brendi altında 180 tədbir keçirilib

"Made in Azerbaijan" brendi altında 2018-ci ilin 9 ayı ərzində AZPROMO 180 tədbir keçirib. Onlardan 155-i Azərbaycanda, 25-i isə xaricdə təşkil edilib. SİA xəbər verir ki, bu barədə oktyabrın 31-də Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) 9 aylıq fəaliyyətinə həsr olunan mətbuat konfransında AZPROMO-nun prezidenti vəzifəsini icra edən Yusif Abdullayev məlumat verib.

Həmçinin qeyd olunub ki, son 9 ay ərzində AZPROMO tərəfindən 9 təlim seminarı keçirilib. Seminarlar beynəlxalq bazarlara çıxış, ixrac olunan ərzaq mallarının sertifikatlaşması və digər mövzularda olub. AZPROMO rəhbəri onu da əlavə edib ki, bu dövr ərzində Çində, Ukraynada, Latviya və Belarusda "Azərbaycan ticarət ev"ləri açılıb.

# YAP Qaradağ rayon təşkilatının şura iclası keçirilib



Dünən Yeni Azərbaycan Partiyasının yaranmasının 26-cı ildönümü ilə bağlı Qaradağ rayon təşkilatının şura iclası keçirilib. Tədbiri YAP Qaradağ rayon təşkilatının sədri, Milli Məclisin deputatı Aydın Hüseynov açaraq, bildirib ki, Azərbaycanda dövlətçiliyinin möhkəmlənməsi və demokratik prinsiplərin bərqərar olmasının, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu prosesinin uğurla, sürətlə həyata keçirilməsinin Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu bildirib: "Ümummilli Lider Heydər Əliyevin siyasi, iqtisadi, ictimai və mədəni həyatın bütün sahələrində gördüyü işlər, artıq Azərbaycanı inkişaf yoluna çıxarıb. Onun fəaliyyəti də, şəxsiyyəti də Azərbaycan tarixinin ayrılmaz bir hissəsini təşkil edir. Müstəqil dövlət ideyası Azərbaycanın yeni tarixində, məhz Ulu Öndər Heydər Əliyevin adı və şəxsiyyəti ilə bağlıdır".

Aydın Hüseynov qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyası Azərbaycanın siyasi palitrasına yeni nəfəs gətirib: "Bu gün partiyamız Prezident İlham Əliyevin rəhbərliyi ilə Cənubi Qafqaz bölgəsinin ən güclü siyasi qüvvəsi kimi özünü təsdiq edib. Azərbaycanın inkişafı prosesində YAP fəal şəkildə iştirak edir".

Tədbirdə YAP Qaradağ rayon təşkilatının sədr müavini Munis Bayramov, aparat rəhbəri Hacı İbrahimov, rayon təşkilatı qadınlar şurasının sədri Hicran Xəlilova, rayon təşkilatı gənclər birliyinin sədri Ramiz Yusubov, Qaz Emalı zavodu ərazi ilk partiya təşkilatının sədri Nizami Quliyev, Sədərək Ticarət Mərkəzi ərazi ilk partiya təşkilatının sədri Sabir Ələkbərov və başqaları çıxış edərək, Yeni Azərbaycan Partiyasının keçdiyi inkişaf yolundan, Ulu Öndər Heydər Əliyevin siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində, qazanılan uğurlardan danışıblar.

***Rəfiqə HÜSEYNOVA***



## "Nar" abunəçilərinə Göyçayda keçiriləcək Nar bayramında iştirak şansı verir

Azərbaycanın milli-mədəni irsinə bağlılıq nümayiş etdirən və milli dəyərləri daim diqqət mərkəzində saxlayan "Nar" abunəçiləri üçün növbəti maraqlı müsabiqə elan edir. Mobil operator abunəçilərinə noyabrın 3-4-də Göyçayda təşkil ediləcək ənənəvi Nar bayramına getmək şansı verir. Bu məqsədlə, "Nar" sosial mediada müsabiqə elan edib. Müsabiqə oktyabrın 30-u saat 16:00-da başlayıb, noyabrın 2-si saat 12:00-a qədər davam edəcək. Nəticələr noyabrın 2-də elan ediləcək.

Suallar nar və Göyçay rayonu haqqında olacaq. Bütün suallara düzgün cavab verən ilk 20 nəfər "Nar" əməkdaşları ilə birlikdə Nar bayramında iştirak etmək üçün Göyçaya səfər edəcək. Müsabiqədə bu keçid vasitəsilə iştirak etmək olar: https://www.nar.az/promo/-goychay-bayram.html

"Nar" kampaniyaları, məhsul, xidmət və tarifləri haqqında məlumatı nar.az internet səhifəsindən öyrənmək olar. "Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 2007-ci il martın 21-də fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93 faizini əhatə edir və 7000-dən artıq baza stansiyası ilə 2,1 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

# Məşğulluq yönümlü iqtisadi inkişaf siyasəti həyata keçirilir

## *Dövlət başçısının Sərəncamı ilə "2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası" təsdiq olunub*

***Azərbaycan Prezidenti İlham Əliyevin böyük uzaqgörənliklə həyata keçirdiyi sosial-iqtisadi siyasət ölkəmizin davamlı inkişafının təmin olunmasında həlledici rol oynayır. Reallaşan dövlət proqramlarının, investisiya layihələrinin uğurla icrası Azərbaycanda qeyri-neft sektorunun sürətli və rəqabətədavamlı inkişafının təmin olunması ilə nəticələnib. Uğurla həyata keçirilən dövlət proqramları və bu sahədə görülən tədbirlər qeyri-neft sektorunun davamlı inkişafına, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin və iş yerlərinin açılmasına təkan vermişdir.***



Ölkədə əmək ehtiyatlarından səmərəli istifadə, əhalinin məşğulluq və sahibkarlıq imkanlarının genişləndirilməsi, layiqli əməyin dəstəklənməsi, əmək məhsuldarlığının yüksəldilməsi hesabına iqtisadi inkişafın təmin edilməsi dövlət başçısının 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrində, başlıca məqsədlər olaraq, müəyyən edilib. Azərbaycan Respublikasında mövcud demoqrafik meyillərə və inkişaf perspektivlərinə, ölkənin müəyyən olunmuş iqtisadi prioritetlərinə əsaslanmaqla səmərəli məşğulluğun təmin edilməsinə yönəldilmiş uzunmüddətli dövlət məşğulluq siyasətinin formalaşdırılması məqsədilə Azərbaycan Prezident İlham Əliyevin Sərəncamı ilə "2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası" təsdiq edilib.

Bu gün ölkənin perspektiv inkişaf hədəfləri məşğulluq sahəsində keyfiyyət göstəricilərinin inkişaf etdirilməsinə, layiqli iş yerlərinin yaradılmasına, məşğulluq sahəsində inklüzivliyin təmin olunmasına və sosial cəhətdən həssas əhali qruplarının əmək bazarında iştirakının artırılmasına yönəlib. Bu baxımdan, qarşıdakı illərdə icrası nəzərdə tutulan "2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası" məşğulluğun inkişafına və layiqli əməyin təmin olunmasına imkan verən əmək bazarının tənzimlənməsinə dair qanunvericilik bazasının və institusional strukturun təkmilləşdirilməsi, işçi qüvvəsinin bacarıqlarının yüksəldilməsi, əmək məhsuldarlığının artırılması, əmək bazarının monitorinqi və digər məsələləri özündə əks etdirməklə, məşğulluq siyasətinin ekstensiv mərhələdən intensiv mərhələyə keçidini təmin edəcəkdir.

Sənəddə göstərilir ki, ölkədə son 15 ildə 1,96 milyon yeni iş yeri yaradılmışdır ki, bunun da 73,3 faizi daimi iş yerləridir. Bununla yanaşı, yeni yaradılmış iş yerlərinin 70 faizdən çoxu regionların, mütləq əksəriyyəti qeyri-neft sektorunun payına düşür. 2005-2017-ci illər ərzində iqtisadiyyatda muzdla işləyənlərin sayı 20,7 faiz artaraq, 1525 min nəfərə çatmış, yəni ümumi məşğul əhalinin 31,6 faizinə bərabər olmuşdur. Azərbaycanda son illərdə ÜDM-in davamlı artımı nəticəsində, əmək məhsuldarlığı üzrə göstərici yüksəlmiş və 2006-cı ildə cari qiymətlərlə 2,35 manatdan, 2017-ci ildə 7,59 manata çatmışdır. Sözügedən Strategiyaya əsasən, həyata keçirilməsi ilə bağlı nəzərdə tutulan hədəflər müəyyənləşdirilib. Belə ki, iqtisadiyyatda rəsmi işləyənlərin qeyri-kənd təsərrüfatı sahəsində ümumi məşğul əhaliyə nisbətini 2030-cu ilədək 80 faizə çatdırmaq nəzərdə tutulub. Bildiyimiz kimi, işsizlik səviyyəsi - 5 faiz təşkil edir, 2030-cu ilədək 4 faizə, o cümlədən, qadınlar və gənclər arasında işsizliyi minimum səviyyəyə endirilməsi nəzədə tutulub.

2030-cu ilədək əmək bazarında mövcud olan bütün prioritet peşələr üzrə peşə standartlarını hazırlamaq, onların müntəzəm yenilənməsi mexanizmini yaratmaq və peşə təhsilində bütün kurikulumların peşə standartları əsasında hazırlanmasına nail olunacaq. Strategiyanın həyata keçirilməsində strateji prinsiplər nəzərə alınacaqdır: hərtərəfli və məqsədli yanaşma, bərabər imkanlar və inklüziv məşğulluq, işsizlikdən etibarlı müdafiə, həvəsləndirmə yanaşması, sosial tərəfdaşlıq və s. Həyata keçiriləcək bu və ya digər tədbirlər nəticəsində əmək bazarında baş verən proseslərə uyğun çevik institusional sistem formalaşacaq, əhalinin məşğulluq və layiqli iş imkanları genişlənəcək, inklüziv məşğulluq, təhsil sisteminin əmək bazarı ilə uyğunluğu təmin ediləcəkdir.

**Nəzakət ƏLƏDDİNQIZI**

# "Dövlətçiliyi yeni mərhələyə yüksəldən lider"

## *YAP Pirallahı rayon təşkilatının "Neft Daşları NQÇİ" ərazi ilk partiya təşkilatında Prezident İlham Əliyevin andiçmə mərasiminin 15 illiyi ilə bağlı dəyirmi masa keçirilib*

***Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatı "Neft Daşları NQÇİ" ərazi ilk partiya təşkilatında 31 oktyabr - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə mərasiminin 15 illiyi ilə əlaqədar "Dövlətçiliyi yeni mərhələyə yüksəldən lider" mövzusunda dəyirmi masa keçirib.***



Tədbiri giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının sədr müavini, "Neft Daşları" NQÇİ-nin rəisi və ərazi ilk partiya təşkilatının sədri Qoçalı Mahmudov bildirib ki, ötən 15 il müddətində, dövlət başçısı Azərbaycanda müstəqil dövlət quruculuğunu bütün sahələr üzrə sürətli inkişafa doğru apara bilib: "Keçən müddətdə ölkə bir-birinin ardınca böyük uğurlar qazanıb. Prezident İlham Əliyev fəaliyyətinin ilk anlarından bu günə qədər dövrün tələblərinə tam cavab verən və milli dövlət suverenliyini qoruyan proqramları uğurla həyata keçirir. Onun daxili siyasətlə xarici siyasəti balanslaşdıra bilməsi digər dövlət başçıları üçün də bir nümunə kimi göstərilir." Q.Mahmudov, həmçinin, bildirib ki, Prezident İlham Əliyevin Azərbaycanda müstəqil dövlət quruculuğunu 2003-cü ildən başlayaraq, faktiki olaraq, yeni səviyyəyə yüksəldib: "Çünki bu, strateji və konseptual bir məsələdir. İndi Azərbaycan Qərbdən tutmuş Şərqə qədər bütün dövlətlərlə əməkdaşlıq edir. Bu gün hansı layihədə Azərbaycan varsa, orada da əməkdaşlıq və sülh var. Bu nailiyyətin 2003-cü ildən sonrakı memarı isə Prezident İlham Əliyevdir!"

Dəyirmi masada çıxış edən "Neft Daşları NQÇİ" ərazi ilk partiya təşkilatının sədr müavini və "Neft Daşları" NQÇİ-nin Sosial - İnkişaf Şöbəsinin rəisi Əhməd Musayev sosial sahədə uğurlu dövlət siyasətinin həyata keçirildiyini qeyd edib. Bildirilib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən qətiyyətli, çevik və mükəmməl iqtisadi strategiya nəticəsində, sosial islahatların miqyası getdikcə genişlənib və əhalinin rifah halı daha da yaxşılaşıb.

Daha sonra tədbir iştirakçıları, 15 il ərzində, keçirilən beynəlxalq əhəmiyyətli tədbirlərdən, Prezident İlham Əliyevin müstəqilliyimizin qorunmasında və inkişaf etdirilməsində misilsiz xidmətlərindən danışıb, müstəqilliyimizin daimi və əbədi olacağına inamlarını ifadə ediblər.

**Rövşən RƏSULOV**

# Əvvəl dövləti, sonra da medalı satan Rəsul Quliyev

***Bu, heç də təəccüb doğurmur. Çünki bu eks-spiker Rəsul Quliyevin qanında, xislətində olan çirkin niyyətidir. Azərbaycan dövlətinin maraqlarına xəyanət edərək, ölkədən qaçan və uzun illərdir okeanın o tayında yaşayan eks-spiker R.Quliyevin bu dəfə Fransa dövlətinin vaxtilə ona göstərdiyi etimadına xəyanət etməsi R.Quliyevin satıb-satılmaq xislətindən irəli gələn növbəti satqınlığıdır. Belə ki, ACP və ADP siyasi müxalifət partiyalarının sabiq lideri "E-bay" Elektron Satış Mərkəzində Fransa Senatı tərəfindən ona təqdim olunmuş xatirə medalını 147 ABŞ dollarına satışa çıxarıldığı bildirilir.***

Qeyd edək ki, eks-spiker R.Quliyev 1996-cı ilin sentyabrında parlament sədri ölkə ərazisini tərk edib. Azərbaycan Respublikasının Baş Prokurorluğunda Rəsul Quliyev barəsində Cinayət Məcəlləsinin 179.2.1, 179.2.3, 179.3.1, 179.3.2-ci (mənimsəmə və israfetmə yolu ilə külli miqdarda əmlakı talama), 313-cü (vəzifə saxtakarlığı) və 309.1-ci (vəzifə səlahiyyətlərini aşma) maddələri üzrə cinayət işi açılıb. Təqsirləndirilən şəxs qismində cinayət məsuliyyətinə cəlb olunan eks-spiker istintaqdan qaçıb gizləndiyinə görə, Bakı Şəhər Səbail Rayon Məhkəməsinin 10 oktyabr 2000-ci il tarixli qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilməklə beynəlxalq axtarışa verilib.



### "Rəsul Quliyev amerkan manqurtudur"

Türkiyənin Azərbaycandakı səfirliyinin sabiq mətbuat müşaviri Turqut Ər eks-spiker R.Quliyevi sərt şəkildə tənqid edib. Turqut Ər facebook hesabından yazdığı statusda R.Quliyevin mətbuata verdiyi müsahibəsində Türkiyə prezidentini tənqid etməsinə fikir bildirib. T.Ər R.Quliyevi korrupsioner, bank fırıldaqları vasitəsilə böyük pullar qazanmış, eləcə də, "OMON" hadisələrində və Qarabağ ətrafında 7 rayonun işğalında, bilavasitə iştirakçı olmaqda ittiham edir: "Dəyərli oxucular, bu gün Azərbaycan internet səhifələrindən birində bir müsahibə dərc olunub. Müsahibədə danışan bir amerikan manqurtu Rəsul Quliyevdir. Keçmişdə rusun, indi isə Amerikanın manqurtu olan bu xəstə təxəyyüllü 20 ildir, Azərbaycandan oğurladığı milyard dollarla kef edir. Bu, Qafqazın ən böyük korrupsioneri, ölkəsinə və millətinə xəyanət edən bir xaindir. Birincisi, hələ 1990-cı illərdə Azərbaycan neftinin başında dayanmış, azərbaycanlı fəhlələrin qan-tərlə istehsal etdiyi neft pullarını mənimsəyib. Daha sonra müstəqillik zamanı banklar quraraq, əhalidən topladığı dollarları mənimsəyərək, qurduğu müxtəlif şirkətlər vasitəsilə xaricə daşımışdır".

R.Quliyevin Türkiyə prezidenti barədə dediklərini böhtan adlandıran Turqut Ər bildirib ki, bu köhnənin böyük korrupsioner və cinayətkarı, indinin amerikan manqurtu R.Quliyev Azərbaycan-Türkiyə qardaşlıq birliyinə qısqanclıqla yanaşaraq, kimlərin buyruğunu yerinə yetirdiyi də məlumdur.

### "Rəsul Quliyev kimilər vətəni satırsa, medalı satmaq onun üçün problem deyil"

Azərbaycan Millətçi Demokrat Partiyasının "lideri" İsgəndər Həmidov bildirib ki, R.Quliyev kimilər vətəni satırsa, medalı satmaq onun üçün problem deyil: "Eks-spiker qorxaq və cəsarətsiz olmaqla yanaşı, cinayətkakrdır. Təbiətcə qorxaq adamdan böyük nələrsə gözləmək əbəsdir. Elə buna görə də, ən böyük işi xəyanətkarlıqdır ki, ömründə Frnasa Senatı tərəfindən aldığı o medalı da satışa qoydu".

Söz yox ki, gec-tez, oğurluq və satqınçılıqla ömür sürən R.Quliyev yaxın zamanlarda qanun qarşısında cavab verəcək.

*Rəfiqə HÜSEYNOVA*

# Bakcell UAFA ilə birlikdə "İncəsənət vasitəsilə ünsiyyət" layihəsini davam etdirir




***Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti özünün "Bakcell Stars" Korporativ Sosial Məsuliyyət proqramı çərçivəsində "Azərbaycana Birgə Yardım" (UAFA) təşkilatı ilə birgə növbəti "İncəsənət vasitəsilə ünsiyyət" layihəsinə başlayır.***

2010-cu ildən başlayaraq Bakcell şirkətinin dəstəyi ilə davamlı şəkildə həyata keçirilən bu layihə, xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün bərabər hüquq və imkanların təmin edilməsi, asudə vaxtlarının səmərəli təşkili və cəmiyyətə tam inteqrasiya olunmalarının təmin edilməsinə yönəlib. Bakcell şirkətinin maliyyə dəstəyi sayəsində bu layihə üzrə bütün fəaliyyətlər maliyyələşdiriləcək daha çox uşağa dəstək olmağa imkan yaradacaq.

"Bakcell şirkəti olaraq cəmiyyətimizin tam hüquqlu üzvləri olan bu uşaqların öyrənməsi, yeni bacarıqlar əldə etməsi və hətta yaradıcılıqla məşğul olmasına imkan yaratmaq üçün əlimizdən gələni edirik. İnanırıq ki, bu uşaqlar həyatda öz yerlərini tapacaq və cəmiyyətin vacib bir hissəsinə çevriləcəklər. Əminəm ki, bu il həyata keçiriləcək bu layihə nəticəsində biz daha çox uşağı sevindirməyə nail olacağıq" deyə, Bakcell şirkətinin İctimaiyyətlə əlaqələr və korporativ kommunikasiya departamentinin rəhbəri Süheylə Cəfərova bildirib.

"İncəsənət vasitəsilə ünsiyyət" layihəsinin yeni mərhələsi "UAFA"nın Xaçmaz və Yasamal İcma Əsaslı Reabilitasiya (İƏR) mərkəzlərindəki xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün yeni imkanlar təmin etmək məqsədi daşıyır. Layihə zamanı yüzə yaxın uşaq öz maraq və seçimləri əsasında yeni bacarıqlara sahib olmaqla yanaşı, istedadını müxtəlif tədbirlərdə nümayiş etdirə biləcəklər.

Bakcell şirkətinin UAFA təşkilatı ilə sıx əməkdaşlığı 2010-cu ildən başlayıb və həmin vaxtdan bu günə qədər olan müddət ərzində "UAFA"nın Gəncə, Xaçmaz və Yasamal İcma Əsaslı Reabilitasiya (İƏR) mərkəzlərində təşkil edilmiş dram, rəqs, rəsm və yaradıcılıq dərnəklərindən 1000 nəfərdən artıq uşaq bəhrələnib. Həmin dərnəklərdə iştirak edən uşaqlar müxtəlif tədbirlərə dəvət olunub öz bacarıqlarını böyük həvəslə nümayiş etdirməklə özlərinə və onları alqışla qarşılayan tamaşaçılara böyük sevinc hissi bəxş edirlər. Layihə çərçivəsində təşkil olunan dərnəklər cəmiyyətdə sağlamlıq imkanları məhdud uşaqlara və əlilliyə qarşı münasibəti dəyişir və bu uşaqların cəmiyyətə tam inteqrasiya olunmalarının təmin edilməsinə kömək edir.



# Əli Kərimlinin "bazarı" və alverçiləri

RÖVŞƏN
rovsen.rasulov@mail.ru

***Sirr deyil ki, AXCP sədri Əli Kərimlinin siyasət "bazarı" hər kəsə açıqdır. Kim istəsə, onunla siyasi alver edərək, çirkin niyyətlərini həyata keçirmək üçün, necə deyərlər, "şans" qazanar. Ümumiyyətlə isə, bu "bazarda" işləyən hər kəs özü üçün nə isə "xırd-xurud" tapa bilər. Necə ki, keçmiş səfir, qısa bir zamanda, Facebook-dakı çıxışları ilə tanınan və ulduzu, elə qısa müddətdə də sönən Arif Məmmədov bu bazarda özü üçün nələrsə tapmışdı. Keçmiş səfir elə keçmiş fəaliyyətinə yönəldilmiş ittihamlara cavabında "bəsirət gözüm indi açılıb" cavabını verə bilər, ancaq onun "bəsirət gözünün" kor olduğunu da deyə bilərik...***

### Xəyanət heç kimsəyə uğur qazandırmayıb

A.Məmmədov, ən azından, keçmiş diplomat kimi bilməliydi ki, Ə. Kərimlinin "ipi" ilə "quyuya enmək olmaz", nə də ki, həmin "ipin" üstünə "odun" yığmaq mümkün deyil. Çünki Ə.Kərimli siyasi cəhətdən heç də ağıllı biri deyil, əksinə, siyasi "bicdir" və dərinliyini bilmədiyi quyuya "ip"-filan sallamaz. Hətta sallasa da, o "iplə" quyuya sallananın ordan sağ-salamat çıxmayacağını bildiyindəndir. Necə ki, keçmiş konsul Nahid Cəfərov o quyudan "sağ çıxmadı".

İnandırıcı olmasa da, yəqin A.Məmmədov Ə.Kərimlinin keçmişindən bixəbərdir. Bəlkə də bunu ona bağışlamaq olar, amma əgər söhbət həm də gələcəkdən gedirsə..! Bu zaman keçmiş diplomatın özünü "yandırdığını" da iddia edə bilərik. Əcəba, A.Məmmədov bilmirmi ki, xəyanət, özü də siyasi xəyanət, heç zaman kimsəyə uğur qazandırmayıb və bu yolla gedən istənilən adam elə siyasi ölümə məhkum olub? Yəqin ki, bilir, sadəcə, o da Ə.Kərimlinin "bazarına" mürtəkib olaraq, alverçi olmaq qərarını verib. Amma bu "bazar" onun sonuncu dayanacağı olub.

### Əli Kərimlinin xarici ölkələrdəki "bazarı" da "ölüb"

Görünən həm də budur ki, Ə.Kərimli müxtəlif anti-milli qərarlarının "daha çox adam tərəfindən dəstəkləndiyini" xaricdəki bəzi qüvvələrin diqqətinə çatdırmaq üçün zaman-zaman keçmiş səfirdən başlayaraq, sıravi "fəallara" qədər bir çoxundan yararlanmaq niyyətini güdür. Çünki Ə.Kərimlinin Azərbaycandakı şansı çoxdan tükənib. Həm də xarici ölkələrə ümidi də məhv olub. Buna baxmayaraq, hələ də ortalıqda var-gəl edib, "baş sındırır". Misal üçün, AXCP sədri xaricdə onun sözünü müəyyən dairələrə çatdıracaq, bəzilərinə ehtiyacının olduğunu və bu ehtiyacının, məhz A.Məmmədov kimilər tərəfindən ödəniləcəyini sanırdı. Fəqət, hələ bu ilin aprel ayında keçirilmiş prezident seçkilərində sabiq diplomat A.Məmmədov ona heç bir dəstək göstərə bilmədi.

Lakin buna baxmayaraq, Facebook-da hələ də ağızlarına çullu dovşan yerləşmir. Məhz Facebook-da! Çünki başqa yerdə və məkanda belələri, ümumiyyətlə, heç nə bacarmırlar. Ümumiyyətlə, belə ünsürlərin bacarıqsızlıqlarından ictimai rəy təngə gəlsə də, özləri heç də bezənə oxşamırlar. Yəqin "bazarlarının öləcəyindən" ehtiyat edirlər. Halbuki bu "bazar" çoxdan "ölüb" və sadəcə, yerdən götürəni yoxdur...

# Xarici fondlar müxalifətlə əməkdaşlıqdan imtina edir

*Hafiz Hacıyev: "Müxalifətin xariclə əlaqələri, bank hesabları və yaxın ətrafının maliyyə qaynaqları araşdırılmalıdır"*

***Dağıdıcı müxalifətin pozuculuğa və təxribatlara hesablanan siyasəti, bir daha onu deməyə əsas verir ki, onlar xalqa və dövlətə düşmən kəsiliblər. Yəni öz məkrli planlarını və eləcə də, xarici qüvvələrin pozuculuğa yönələn sifarişlərini yerinə yetirmək üçün şeytanla belə əməkdaşlıq münasibətləri qurmaqdan çəkinməzlər.***



Yəni AXCP, Müsavat kimi dağıdıcı xislətli partiya yetkililərinin apardıqları siyasətin başlıca xətti düşmən dəyirmanına su tökmək olub. 2003-cü il prezident seçkiləri, 2005-ci il parlament seçkiləri və nəhayət, 2013-cü il prezident seçkiləri ərəfəsi müxalifətin fəaliyyəti yalnız təxribatlar törətmək, sosial şəbəkələrdə şər və böhtan xarakterli informasiyalar yaymaq olub. Məlumat üçün xatırlatmaq lazımdır ki, 2013-cü il prezident seçkiləri ərəfəsi AXCP ABŞ-ın Milli Demokratiya İnstitutu tərəfindən "Facebook layihəsi"nə görə, 2 milyon ABŞ dolları məbləğində vəsait almışdır. Əli Kərimli ətrafına yığdığı "söyüş qrupu"nun üzvləri vasitəsi ilə ölkəmizdə xoşagəlməz olaylar yaratmağa və təxribatlar törətməyə cəhdlər göstərdi. Amma fakt budur ki, bu kimi cəhdlər nəticəsiz qaldı. Çünki onlar cəmiyyətdə qəbul olunmur, ictimaiyyət arasında hörmətə və nüfuza malik deyillər.

## Müsavatın dağılması ilə İsaQəmbərin də siyasətdə sonu olacaq

Söz yox ki, dağıdıcı müxalifətin cəmiyyət tərəfindən qəbul edilməməsinin konkret səbəbləri var. Başlıcası hakimiyyətə gəlmək uğrunda anti-Azərbaycan dairələrə Dağlıq Qarabağı ermənilərə güzəştə gedəcəklərini vəd etmələri, ölkənin milli mənafeyini özlərinin və xidmət etdikləri qüvvələrin korporativ maraqlarına qurban verməyə hazır olmaları, məqam və nəqsədlərini anlamayan bir neçə gənci təxribatlar törətməyə təhrik etmələri və bu kimi səbəblərlə əlaqləndirmək olar. Qərb dövlətlərinin Bakıdakı səfirliklərində keçirdikləri görüşlər və Azərbaycanın maraqlarının satılmasına cəhdlərin göstərilməsi, dağıdıcı müxalifətin xalqın gözündən düşməsinin başlıca səbəbləri sırasına aid etmək olar. Bu da dağıdıcı müxalifətin çirkin və yaramaz siyasətinin dəyişməsinin mümükün olmadığını göstərir. Təbii ki, belə siyasət aparan müxalifət məhvə məhkumdur, necə ki, bunun artıq bütün elementləri açıq şəkldə görünməkdədir. Artıq AXCP-nin ardınca Müsavat partiyası da ağır və üzücü bir mərhələyə qədəm qoyub. 2016-cı ildə iki yerə parçalanmasından sonra partiya yenidən təlatümlü vəziyyətlə üzləşməli olub. Demokratik Maarifçilik Partiyasının sədri Elşən Musayev Müsavatın dağılmasının başlıca günahkarının Arif Hacılı və İsa Qəmbər olduğunu bildirib: "İsa Qəmbər elə bir adamdır ki, zamanında öz lideri Elçibəyə güzəşt etməyib. Öz böyüyünə qarşı çıxıb. Ona görə də, indiki, məqamda öz etdiklərinin acı bəhrəsini görür. Müsavtın dağılması ilə İ.Qəmbərin də siyasətdə sonu olacaq". "Müasir Müsavat" partiyasının sədri Hafiz Hacıyev isə, dağıdıcı müxalifət partiyalarının fəaliyyətlərinin araşdırılması təklifi ilə çıxış edib. Bildirib ki, Əli Kərimlinin, Arif Hacılının, İsa Qəmbərin və digər dağıdıcı partiya sədrlərinin fəaliyyəti ciddi şəkildə araşdırılsa, kifayət qədər cinayət əməlləri üzə çıxar: "Əli Kərimli öz liderini zəhərləyən öldürən adamdır. Elçibəy xəstə yatağında olanda, Əli Kərimli "Azadlıq" qəzetində onun ünvanına qeyri-etik yazılar yazdırırdı. Elçibəyin cənazəsi gələn gün Əli Kərimlinin sifarişi ilə "Azadlıq" qəzetinin manşetində onu təhqir eləmişdilər. İndi belə bir adamdan nə gözləmək olar? Əli Kərimli də İsa Qəmbər də xarici qüvvələrə işləyirlər, oradan maliyyə alırlar və bu yolla ölkədə qarışıqlıq salmağa çalışırlar. Hesab edirəm ki, radikal müxalifətin xariclə əlaqələri, bank hesabları, yaxın ətrafının maliyyə qaynaqları da araşdırılmalıdır. Əgər dərindən araşdırma aparılsa, onları həbsə atmaq üçün kifayət qədər əsas tapmaq olar".

## Xarici maraqlı dairələrin müxalifətə güzəşt limiti bitib

Cəmiyyətin müxalifəti qətiyyətlə rədd etdiyini dağıdıcı xislətli partiya sədrləri də dərk edir, başa düşürlər. Sadəcə, xaricdən maliyyə yardımaları əldə etmək xəstəliyi onlara siyasətdən getməyə imkan vermir. Bir növ, bir-biri ilə xarici maraqlı qüvvələrin diqqət mərkəzinə çevrilmək üçün yarışa girirlər. Buna görə, bəzən şou yaradıb, məzhəkə qurmaqdan belə çəkinmirlər. Proseslərə və araşdırmalara əsaslanaraq, demək olar ki, bu cür primitiv formatlardan istifadədə sözügedən şəxslər bir-birinə güzəştə belə getmək istəmirlər. "Milli Şura"nın sədri Cəmil Həsənli ABŞ-a səfərindən qıcıqlanan Müsavat başqanı A.Hacılı dərhal Avropaya səfərə getdi. Avropada partiya vəsiqələri satıb, Avropaya göndərdiyi müsavatçılarla görüş keçirən A.Hacılı, Ə.Kərimli və onun sözçüsü Qənimət Zahid haqqında təhqiramiz ifadələr və firkirlər səsləndirdi. Hətta A.Hacılı Ə.Kərimlinin sədrliyi dönəmində cəbhəçilərlə müsavatçıların əməkdaşlığının mümkün olmadığını və Avropadada bu çağırışa əməl etməyin vacibliyini söyləyib. Bütün bu kimi müxalifət daxilində baş verənlərə əsaslanaraq, onu demək olar ki, müxalifət düşərgəsində təmsil olunan partiya sədrlərinin birgə fəaliyyət göstərmələri qeyri-mümkündür. Onların milli maraqlardan çıxış etmələri də çətin məsələdir. Birincisi, ona görə ki, hər bir partiya sədri özünü aparıcı sima kimi görmək istəyir. Rəqiblərinin mövcudluğu isə qarşıdurmalar yaradır. İkincisi isə, maddi və mənəvi dəstək almaq üçün xarici himayədarlara ehtiyac duyurlar. Məhz bu amillərə görə, müxalifət liderləri sağlam düşüncə daşıyıcısı heç zaman ola bilməz.

**İ.ƏLİYEV**

# Bundesverin hərbi texnikasının yarıdan çoxu yararsızdır

***2017-ci ildə Almaniyanın müdafiə nazirliyinə - Bundesverə daxil olan hərbi texnikanın yalnız 3/1-i texniki cəhətdən yararlıdır. SİA xəbər verir ki, bu barədə AFR-in DPA agentliyi məlumat yayıb. Belə ki, Bundestaqın Solçu partiyasının deputatı Matias Xyön Almaniyanın müdafiə nazirliyinin parlamentdəki stast-katibi Peter Tauberə sözügedən məsələ ilə bağlı sorğu göndərib.***




Cavab sənədində qeyd olunur ki, ordunun istifadəsinə verilən 97 hərbi maşının yalnız 38-i (ümumi rəqəmin 39%-i) istifadəyə yararlıdır.

Bundesver bu göstəricini 70%-ə qədər yüksəltməyi hədəfləyib. "Biz əvvəlki kimi hesab edirik ki, hərbi sənaye bu göstəricilərin həyata keçirilməsi üçün təcili işə başlamalıdır", sənəddə bildirilir. AFR-in baş hərbi idarəsində daha çox suallar yaradan PDM Puma və A 400M hərbi-nəqliyyat təyyarələridir. Hərbi rəhbərlik onların keyfiyyətinin artırılması tələbinin yaranmasını istisna etmirlər.

Belə ki, Bundesverə verilmiş 71 ədəd Pumalardan yalnız 27-i hərbi əməliyyatlara hazırdır. 8 A 4000M təyyarələrindən 4-ü, 4 Eurofighter qırıcılarından isə biri döyüşə hazır vəziyyətdədir. "Helikopterlərlə bağlı vəziyyət isə daha kədərlidir", yazan alman saytı növbəti rəqəmləri göstərir. Belə ki, silahlı qüvvələrə verilmiş 7 ədəd Eurocopter Tiger hərbi helokopterlərindən ikisi, 7 çoxhədəfli NH90 helikopterlərindən isə yalnız dördü istifadəyə yararlıdır.



*Satqın dağarcıqları*

**RƏFİQƏ**

***İndiyə qədər bollu-bərəkətli müqəddəs məmləkətimizdə çörəyini yeyib, suyunu içən, milli maraqları satan xəyanətkarlar sürüsü çox olub. Bu gün də belədir. Və hər zaman məni düşündürən də bu olub ki, özlərini ictimai rəyə müxalifətin "dədəsi" - "babası" kimi təqdim edənlərin vicdandan, insani dəyərdən, daha nə bilim, nədən danışarkən, heç utanıb, yerə girirlərmi? Bələləri nə qədər düşüncəsizdirlər ki, utanmadan, hələ bir çıxıb olmayan vicdandan- qeyrətdən danışırlar. Şərəfsizin, vicdansızın, şəxsi maraqlarına görə hər şeyi satanın sadalananlar barədə danışması gülüş doğurur.***

## Erməniyə nökərçilik edən yırtıcılar...

Erməniyə nökərçilik edən Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli kimi yırtıcı ünsürlərin, ümumiyyətlə, strategiya, istiqamət planı varmı ki, hələ bir o planın arxa və ön tərəfi də olsun? Yoxdur, təbii. Sadəcə, G.Hacıbəyli, C.Həsənli və Ə.Kərimli özlərini "müqəddəs üçlük" elan edirlər. Aralarında da kim daha çox bekar olsa, sədr kimi də həmin adam danışır. Vəssalam. Məğz budur. Sadəcə, anlamırlar ki, biri beşinə dəyməz, beşi birinə. Fərqində deyillər ki, "Milli Şura" çoxdan tarixin arxivinə gömülüb və nə dediklərindən asılı olmayaraq, anındaca gülüş obyektinə çevrilirlər. Düzdür, bu arada G.Hacıbəyli C.Həsənliyə "müəllim elmi işlərlə məşğuldur deyə, siyasətdən uzaqlaşıb" replikasını ataraq "ağsaqqal"ı mədəni şəkildə pensiyaya göndərir. Amma Ə.Kərimli olmayan təşkilatın sədri olmaq üçün bildirir ki, C.Həsənlini yaxşı tanıdığına, onun xasiyyətinə və xarakterinə yaxından bələd olduğuna görə, hələlik, yanında saxlayıb. Yaxşı bilir ki, nə təhlükə var, nə iddia. Ürəyi istəyən vaxt qovacaq.

## Gültəkin Hacıbəyli, sadəcə, eyforiyadadır...

Gültəkin Hacıbəyli öz tövrünü pozmaq fikrində deyil. Ermənilə işbirliyi aparan bu adam nə elədiyini bilmir. Get-gedə də özünü quyunun tam dibinə aparır. Əvvəl-əvvəl guya iqtidara acıq vermək üçün bunları edirdi, fəqət, birdən ayıldı ki, artıq qaragüruhçular kimi, artıq ermənilərlə işbirliyinə girişib. Gültəkin özünü "çoxbilmiş" hesab etsə də, sosial şəbəkələrdə yazdığı statusların mətninə, ordakı atmacalara diqqət yetirmək kifayətdir ki, bu adamın hansı səviyyə və məntiq yiyəsi olduğunu görəsən. Çünki Gültəkin əvvəllər yerində olmayıb, indi isə əsl yerindədir, ona Kərimli və Cəmil kimi uğursuzların yanında olmaq yaraşır.

Əqidəsizlik, satqınlıq, ikiüzlülük, xəyanət, paxıllıq, xəbislik, şantajçılıq və pul hərisliyi- bütün bunlar Ə.Kərimli, C.Həsənli və G.Hacıbəylidə cəmləşib. Amma azərbaycanlı adları və soyadları isə onlardan qat-qat uzaqdadır. Hətta o qədər uzaqdadır ki, erməni dəyəri və marağı daha yaxındır belələrinə. Bu satqın dağarcıqlar artıq tarixə satqın kimi düşüblər, millət və dövlət onları Vətən xainləri kimi tanıyır.

# Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkilliyi haqqında Konstitusiya Qanununda təsbit olunmuş qaydalar

***Qanunda Azərbaycan Respublıkasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) seçilmək üçün bir sıra ciddi tələblər qoyulur və bu da, bizim fikrimizcə, müsbət hal kimi qiymətləndirilməlidir. Belə ki, Qanunun 3-cü maddəsinə görə, yaşı 30-dan aşağı olmayan, ali təhsilli, insan hüquqlarının müdafiəsi sahəsində təcrübəyə və yüksək əxlaqi keyfiyyətlərə malik olan Azərbaycan Respublikasının vətəndaşı müvəkkil vəzifəsinə seçilə bilər. Göründüyü kimi, müvəkkil olmaq üçün təkcə hüquqi deyil, həm də mənəvi tələblər də qoyulur.***



Bundan başqa, burada kimlərin müvəkkil ola bilməməsi də konkret göstərilir: "İkili vətəndaşlığı olan, başqa dövlətlər qarşısında öhdəliyi olan, qanunvericilik, icra, və məhkəmə hakimiyyətlərində qulluq edən, elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla, başqa ödənişli fəaliyyətlə məşğul olan, fəaliyyət qabiliyyətsizliyi məhkəmə tərəfindən təsdiq edilən, ağır və xüsusilə, ağır cinayətlərə görə məhkum olunmuş şəxs müvəkkil seçilə bilməz". Eyni zamanda, müvəkkil siyasi fəaliyyətlə məşğul olmamalı və heç bir siyasi partiyanın üzvü və qeyri-hökumət təşkilatının rəhbərliyində təmsil olunmamalıdır. Belə bir tələb də qoyulur ki, müvəkkil vəzifəyə seçildiyi vaxtdan, 5 gün ərzində, onun statusuna uyğun gəlməyən fəaliyyətlərə xitam verməlidir.

Müvəkkil vəzifəyə seçildiyi gün Azərbaycan Respublikası Milli Məclisinin iclasında həmin vəzifədə səlahiyyətlərini şərəf və ləyaqətlə yerinə yetirəcəyinə, Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına əməl edəcəyinə, müstəqil və qərəzsiz fəaliyyət göstərəcəyinə and içir. Müvəkkilin səlahiyyət müddəti qanunla 7 ildir və həmin vəzifəyə eyni şəxs yalnız bir dəfə seçilə bilər.

Qanunun ikinci fəslində insan hüquqlarının pozulmasına dair şikayətlərə baxılması mexanizmi müəyyən olunmuşdur. Belə ki, 8-ci maddədə Müvəkkilə şikayətlərlə kimlərin müraciət edə biləcəyi müəyyən olunur və onlara Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər, vətəndaşlığı olmayan şəxslər və hüquqi şəxslər aid edilir. Şikayətləri, həmçinin, hüquqları pozulmuş şəxsin razılığı ilə, üçüncü şəxslər, o cümlədən, qeyri-hökumət təşkilatları da verə bilər. İnsan hüquqları pozulmuş şəxsin razılığını almaq mümkün olmadıqda (həmin şəxs vəfat etdikdə, fəaliyyət qabiliyyətini itirdikdə və s.). şikayəti üçüncü şəxslər və ya qeyri-hökumət təşkilatları razılıq olmadan da verə bilərlər. Dövlət orqanlarına isə müvəkkilə şikayət vermək hüququ verilmir. Qanuna görə, müvəkkil öz təşəbbüsü ilə də araşdırma apara bilər. Əgər araşdırma zamanı, müvəkkil müəyyən etsə ki, araşdırma onun səlahiyyətinə daxil olmayan məsələlərə aiddir, onda o, materialları araşdırmaq üçün digər dövlət orqanlarına göndərir.

Qanunda şikayətin baxılma müddəti 30 gün müəyyən edilmiş, onun nəticələri ilə bağlı məlumatın isə ərizəçiyə 5 gün müddətində yazılı surətdə verilməsi nəzərdə tutulur. Müvəkkil şikayətin araşdırılması zamanı insan hüquqlarının pozulması hallarını aşkar etdikdə, aşağıdakı tədbirləri həyata keçirə bilər:

- qərar və ya hərəkəti (hərəkətsizliyi) nəticəsində insan hüquqlarını pozmuş, dövlət və yerli özünüidarə orqanlarından, vəzifəli şəxslərdən həmin hüquqların bərpasını tələb etmək;
- cinayət əlamətləri aşkar edildikdə, müvafiq orqanlara cinayət işinin başlanması barədə müraciət etmək;
- əlavə kassasiya qaydasında şikayət etmək hüququna malik olan subyektlərə müraciət etmək;
- qərar və ya hərəkəti (hərəkətsizliyi) nəticəsində insan hüquqlarını pozmuş vəzifəli şəxslərin intizam məsuliyyətinə cəlb edilməsi barəsində müvafiq orqanlara təkliflər vermək;
- insan hüquqlarının pozulması ilə əlaqədar aparılmış yoxlamaların nəticələri ilə kütləvi informasiya vasitələrini tanış etmək;
- insan hüquqlarının pozulması xüsusi ictimai əhəmiyyət kəsb edən hallarda onların bərpası üçün müvəkkilin səlahiyyətində olan təsir imkanları kifayət etmədikdə, Azərbaycan Respublikası Prezidentinə müraciət etmək, Azərbaycan Respublikasının Milli Məclisi qarşısında məruzə ilə çıxış etmək;
- dövlət və ya özünüidarə orqanlarının, vəzifəli şəxsin qərarı və ya hərəkəti (hərəkətsizliyi) nəticəsində pozulmuş hüquqların bərpası üçün məhkəməyə müraciət etmək;
- şəxsin hüquqları qüvvədə olan normativ aktlarla pozulduqda, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə sorğu ilə müraciət etmək (m.13).

Bütün bunlarla yanaşı, müvəkkil öz fəaliyyətində bir təsir vasitəsindən də istifadə edə bilər ki, bu da onun Azərbaycan Respublikası Prezidentinə təqdim etmək üçün hazırladığı illik məruzəsidir. O, həmin məruzə ilə, həmçinin, Milli Məclisdə çıxış etməlidir.

İllik məruzədə insan hüquqlarını pozan, müvəkkilin tələbləri ilə hesablaşmayan dövlət və yerli özünüidarə orqanlarının, vəzifəli şəxslərin adları çəkilən və bununla əlaqədar görülmüş tədbirlər barədə məlumat verilir. Həmin məruzədə ölkədə insan hüquqlarının təmin edilməsi ilə əlaqədar ümumi fikir, rəy və tövsiyələr öz əksini tapmalıdır.

Qanuna görə müvəkkilin illik məruzəsi Azərbaycan Respublikasının Nazirlər Kabinetinə, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə, Ali Məhkəməsinə və Baş prokuroruna göndərilməli və rəsmi dərc olunmalıdır.

Qanunda müvəkkilin fəaliyyətinin həyata keçirilməsinin təmin edilməsi üçün aparatın yaradılması nəzərdə tutulur və aparat müvəkkil tərəfindən təsdiq olunan "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin aparatı haqqında" Əsasnaməyə uyğun fəaliyyət göstərir. Müvəkkilin və onun aparatının fəaliyyəti Dövlət Büdcəsi hesabına maliyyələşdirilir.

Ombudsman Təsisatının yaradılması Azərbaycanda gedən demokratikləşdirmə prosesinin bariz nümunəsidir. Bu qurumun ölkəmizdə yaradılması insan hüquq və azadlıqlarının qorunmasında olan boşluğun doldurulmasına imkan vermiş, respublikada bu sahədə fəaliyyət göstərən mövcud müdafiə mexanizmləri ilə uzlaşdırılaraq, bir növ onları tamamlamışdır. Əlbəttə, ombudsmanın fəaliyyəti təkcə konkret hallarda insan hüquq və azadlıqlarını müdafiə etməklə məhdudlaşmamalı, o, bu sahədəki ümumi nöqsanların da özünəməxsus üsullarla aşkara çıxarılıb, aradan qaldırılmasına xidmət göstərməlidir.

Hazırda Azərbaycanda Ombudsman Aparatının strukturlarının formalaşdırılması davam etdirilir. İlk növbədə, qurumun rəhbərliyi 58 ştat üzrə qəbul olunan işçilərin keyfiyyət tərkibini təmin etməyə çalışırdı. 2002-ci ilin avqust ayında ölkədə keçirilmiş referendum nəticəsində, konstitusiyada təsbit edilməklə, Ombudsman Təsisatı artıq qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi istiqamətində fəal iş görməyə başlamışdır.

Təhlillər göstərir ki, fəaliyyət göstərmək üçün ərizə ilə müraciət edən 170 nəfərdən, ilkin mərhələdə, 45 nəfəri müvəkkilin aparatına müxtəlif vəzifələrdə təyinat üçün seçilmiş, beləliklə də, göründüyü kimi, bu məqsədlə daha bacarıqlı və səriştəli adamların seçilməsinə imkan olmuşdur. Ombudsman Təsisatının təşkilati şəbəkəsi Azərbaycanın bütün bölmələrini əhatə etməklə, onun işçiləri vətəndaşlar arasında funksiyaları və vəzifələri barədə izahat işi aparılır, onların qəbulu təşkil edilir. Ombudsman Aparatının işçiləri Azərbaycanın penitensiar müəssisələrində görüşlər təşkil edir, məhkumlarla söhbət aparır, onların hüquqlarının qorunması sahəsində mövcud problemləri öyrənməyə çalışırlar. Qurumda, xüsusi olaraq, qaçqın və məcburi köçkünlərlə bağlı şöbə fəaliyyət göstərir. Bütövlükdə, Ombudsman Təsisatının əsas fəaliyyət prinsipi ölkə vətəndaşlarının hüquqlarını təmənnasız və həssaslıqla müdafiə etməkdən ibarətdir. Bütün bunların nəticəsidir ki, fəaliyyətə başladığı qısa müddət ərzində, Ombudsman Aparatına mindən artıq şikayət ərizəsi daxil olmuşdur. Bu da, onu göstərir ki, Azərbaycanda Ombudsman Təsisatı Konstitusiya Qanunu ilə malik olduğu səlahiyyətlərdən və vəzifələrindən, kifayət qədər səmərəli istifadə etməklə, fəaliyyətə başladığı ilk gündən vətəndaşların pozulmuş hüquq və azadlıqların bərpası istiqamətində məqsədyönlü iş aparır. Beləliklə, yeniləşən cəmiyyətimizdə Ombudsman Təsisatı Azərbaycanın özünəməxsus xüsusiyyətləri və dəyərləri, həmçinin, qabaqcıl xarici təcrübə əsasında bərqərar olması üçün əlverişli mühit yaradılıb. Bütün bunlar da bu istiqamətdə konstruktiv yanaşmaların, müsbət nəticələrin əldə olunmasına geniş imkanlar yaradır.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

səs

Son səhifə 1 noyabr

## Ən varlı ulduzların siyahısı açıqlandı



"Heat" dərgisi yenidən Böyük Britaniyanın ən bahalı ulduzlarının siyahısını hazırlayıb. Siyahıda 30 yaşa qədər olan məşhurlar yer alıb. 30 yaşlı Adel yenə də siyahıya liderlik edir. Tək fərq isə odur ki, onun bankdakı hesabı 15,5 milyon dollar artıb. Bu məbləği isə Adel verdiyi konsertlər vasitəsi ilə artırıb. 29 yaşlı Deniel Redkliff və 27 yaşlı Ed Şiranın siyahıdakı rəqəmləri dəyişib. "Shape of You" hitinin ifaçısı ikinci yeri tutur. Harri Potterin qəhrəmanı isə geriləyərək üçüncü olub.

## Şahzadə Çarlz üç ildən sonra Böyük Britaniyanın kralı ola bilər

Böyük Britaniya kraliçası II Elizabet taxtını böyük oğlu - Uels şahzadəsi Çarlza verməyi planlaşdırır. Vəliəhd üç ildən sonra taxta çıxa bilər. TASS informasiya agentliyinin məlumatına əsasən, "Daily Mirror" qəzeti bu barədə "Charles at 70: Thoughts, Hopes And Dreams" (Çarlz 70 yaşında: Düşüncələr, ümidlər və arzular) kitabına istinadla yazıb.



Belə ki, Böyük Britaniya kraliçası II Elizabet 95 yaşında dövlət işlərindən uzaqlaşmağı düşünür. "Zati-aliləri vəliəhd şahzadəni naib təyin etmək istəyir. Beləliklə Çarlz, sözün əsl mənasında, kral ola bilər, lakin II Elizabet formal olaraq ömrünün sonuna qədər öz xalqına xidmət edəcək", - deyə məqalədə bildirilir. Qanunvericiliyə əsasən, kral naibi 21 yaşdan yuxarı Britaniya vətəndaşı olmalı və Birləşmiş Krallığın ərazisində yaşamalıdır. Bu parametrlərə görə, atası III Georqun (1738-1820) ağır xəstəliyindən sonra 1810-1820-ci illərdə krallığı idarə edən yeganə kral naibi IV Georq (1762-1830) olub.

Qeyd edək ki, II Elizabet 1952-ci ildə 25 yaşında monarx hüququna yiyələnib. O, 2015-ci ilin sentyabrında kraliça Viktoriyanın hakimiyyətdə qalma rekordunu yeniləyib. 2016-cı il oktyabrın 13-də Tailand kralı Pumipon Adulyadet vəfat etdikdən sonra hazırda sağ olan krallar arasında uzun müddət taxtda qalan monarx titulunu qazanmış II Elizabet 2018-ci il aprelin 21-də 92 yaşını qeyd edib.

## İspaniyada velosipedlərə icbari sığorta tətbiq olunacaq...

İspaniyanın daxili işlər naziri Fernando Qrande Marlaska velosiped sahibləri üçün icbari sığortanın tətbiq olunması təklifini irəli sürüb. Nazirin fikrincə, onlar nəinki yol-nəqliyyat hadisələrinin qurbanına çevrilirlər, həm də özləri yollarda qəza vəziyyətləri törədirlər.



AZƏRTAC xəbər verir ki, bu yeniliklər təkcə adi velosipedlərə deyil, yeni nəqliyyat vasitələrinə, məsələn, yerli sakinlərin və turistlərin şəhər küçələrində hərəkət etdikləri elektrik velosipedlərinə də şamil edilə bilər. Əgər bu layihə həyata keçirilsə, sığorta bazarına milyonlarla yeni müştəri axışacaq. Artıq bəzi sığorta şirkətləri hadisələri qabaqlamaq qərarına gəliblər. Onlar velosipedçilərə ildə 37 avrodan başlayan qiymətlərlə sığortalar təklif edirlər.

## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix müəllimliyi ixtisası üzrə III kurs tələbəsi Hüseynov Nail Malik oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## Konte də "Real"dan imtina etdi!



"Çelsi"nin sabiq baş məşqçisi Antonio Konte "Real"ı çalışdırmaqdan imtina edib. Qol.az-ın "Sky Sports"a istinadən yaydığı xəbərə görə, Madrid klubu italiyalı mütəxəssislə razılığa gələ bilməyib. Konte qarşı tərəfə mövsümün ortasında deyil, əvvəlində işə başlamaq istədiyini bildirib. Qeyd edək ki, Britaniya mətbuatı Kontenin "Manester Yunayted"i çalışdırmaq niyyətində olduğunu yazıb. Əlavə edək ki, "Real"ın sabiq üzvü olan Mixael Laudrup da "kral klubu"nun təklifini rədd edib.



## Baqali Dabo: Hədəfim "Neftçi" ilə çempion olmaqdır

"Çempionatın bombardiri olmaq yaxşıdır. Əsas hədəfim komandam ilə çempion olmaqdır." Bu sözləri "Neftçi" klubunun hücumçusu Baqali Dabo deyib. Fransız futbolçu bildirib ki: "Biz peşəkar futbolçuyuq, eyforiyaya qapanmaq fikirlərdən uzaq olmalıyıq. Geridə cəmi 9 tur qalıb, çempionatın böyük hissəsi hələ qarşıdadır. Heç bir eyforiyadan söhbət gedə bilməz. İndi bütün fikirlərimiz "Keşlə" ilə oyuna yönəlib".

"Qarabağ"la oyundan sonra çoxu mənə sual verdi ki, niyə sən sevinməmisən? Düzü qoldan bir neçə dəqiqə əvvəl rəqib "fair play"ə uyğun oynamadı. Bu amil məni bir az əsəbləşdirdi. Üstəlik, qol da vurdular. Bu oyunda, həm də o cür azarkeş dəstəyi altında bizi qələbədən başqa heç bir nəticə qane etməyəcəkdi. Biz qələbəyə layiq idik və üçüncü qol bütün suallara aydınlıq gətirdi. Ona görə də, həmin an çox emosional idim. Düşünürəm ki, Premyer Liqada əsas rəqiblərimiz "Qarabağ", "Qəbələ" və "Sabah"dır", - deyə Baqali Dabo əlavə edib.

## "Milan" Qattuzonun istefası ilə bağlı açıqlama yayıb



"Milan"ın idman direktoru Leonardo komandanın baş məşqçisi Cennaro Qattuzonun istefaya göndəriləcəyi ilə bağlı yayılan xəbərlərə münasibət bildirib. Qol.az-ın "La Gazzetta dello Sport" nəşrinə istinadən yaydığı xəbərə görə, klub rəsmisi məlumatı təkzib edib. O, gənc mütəxəssisə inandıqlarını vurğulayıb: "Qattuzonun istefası ilə bağlı xəbərlər klubdan kənarda yayıldı və heç bir əsası yoxdur. Ona görə təkzib bəyanatı vermədik. Qattuzo bilir ki, rəhbərlik ona tam güvənir". Leonardo "Milan"ın bu mövsümdəki hədəflərini də açıqlayıb: "Qarşıya qoyulan əsas vəzifə Çempionlar Liqasına qayıtmaqdır. Hesab edirəm ki, bunun üçün hər bir imkanımız var". Qeyd edək ki, "Milan" A Seriyasında 9 turdan sonra 15 xalla 7-ci pillədə yer alır.

## Dünya çempionatında iştirak edəcək ağır atletika üzrə millimizin heyəti açıqlanıb

Noyabrın 1-dən 10-dək Türkmənistanın paytaxtı Aşqabadda kişilər və qadınlar arasında ağır atletika üzə dünya çempionatı keçiriləcək. Azərbaycan Ağır Atletika Federasiyasından bildiriblər ki, Aşqabad Olimpiya Kompleksində təşkil olunacaq yarışda 91 ölkədən 693 atlet medallar uğrunda mübarizə aparacaq. Dünya çempionatında Azərbaycan millisinin heyətində Məhəmməd Məmmədli (61 kq), Rüstəm Qasımov, Kənan Xəlilov (hər ikisi 67 kq), Füqan Əliyev, Paşa İbrahimli (hər ikisi 73 kq), Kənan Əliquliyev (81 kq) və Tarmenxan Babayev (89 kq) yer alıblar.

## "Barselona"nın yeni transferi klubu tərk etmək istəyir

"Barselona"nın yeni transferi Malkom klubunu dəyişmək istəyir. SİA-nın məlumatına görə, yayda böyük ümidlərlə transfer olunan futbolçu artıq yanvar ayında klubu tərk etmək istəyir. Bu mövsüm cəmi 25 dəqiqə meydanda olan Malkom yaxın günlərdə komandanın baş məşqçisi Ernesto Valverde ilə görüşərək gələcəyi haqda danışıb. Futbolçu Valverde ilə görüşdükdən sonra anlayıb ki, növbəti mövsüm klubunu dəyişməlidir. Qeyd edək ki, Malkom "Barselona"ya Bordo klubundan keçmişdi.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**